Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 149 (7876) BAZAR, 8 iyul 2018-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az | Qiyməti 40 qəpik



# Ordumuzun uğurları möhtəşəm qələbəni sürətlə yaxınlaşdırır



**Naxçıvanda Günnüt kəndinin işğaldan azad olunması və Ermənistanla sərhəddə strateji yüksəkliklərin ələ keçirilməsi Azərbaycan Silahlı Qüvvələrinin 2016-cı ilin aprel qələbəsindən sonra növbəti zəfəri oldu.**

Xalq Cümhuriyyətinin və ordumuzun yaradılmasının 100-cü ildönümünə təsadüf edən bu hadisə cəmiyyətimizin xoş ovqatını daha da artırdı, düşmən üzərindəki qələbə gününün o qədər də uzaqda olmadığını göstərdi. Hər birimiz növbəti dəfə ordumuzdakı qalibiyyət əzminin şahidi olduq.

## Naxçıvan əməliyyatı yüksək peşəkarlıqla həyata keçirildi

Günnüt əməliyyatı zamanı Azərbaycan Silahlı Qüvvələrinin tərkib hissəsi olan Əlahiddə Ümumqoşun Ordu müdafiə zolağının Vəlidağ, Kömürlüdağ istiqamətində Axsal dağı, Qızılqaya dağı, Yağargərdik dağı, Bağırsaq dağı və Həsənqulubağ sahəsində ön xəttin dövlət sərhədi boyu əlverişli mövqeləri ələ keçirib. 26 kilometr məsafəni əhatə edən əməliyyat nəticəsində 7 kilometrədək dərinlikdə əlverişli yüksəkliklər düşməndən geri alınıb. Bu, Qızılqaya yüksəkliyinin ən böyük strateji əhəmiyyəti Yerevan-Yexeqndzor-Gorus-Laçın-Xankəndi avtomobil yoluna ordumuzun nəzarət etməsinə imkan verib. Ümumilikdə 11 min hektar ərazi düşməndən azad edilib. Bu ərazinin isə 8 min hektardan çoxu əkin üçün, xüsusilə dəmyə əkinçiliyi üçün yararlı torpaqlardır.

Bu uğurlu və tarixi qələbədən sonra ərazinin etibarlı müdafiəsi, bölmələrin manevr qabiliyyətinin yüksəldilməsi üçün və təminat-təxliyə məqsədilə 50 kilometr yeni yol çəkilib, 60 kilometrdən artıq yararsız yollar isə bərpa edilib. Strateji əhəmiyyətli Arpaçay Su Dəryaçasının taktiki cəhətdən etibarlı mühafizəsinin təşkili üçün ətrafdakı hakim yüksəkliklərdə yeni müdafiə mövqeləri qurulub. Müdafiə rayonunun qorunmasının təşkili məqsədilə ərazidə qısa müddətdə mühəndis-istehkam tədbirləri görülüb, postlar arasında dayanıqlı rabitə əlaqəsi yaradılıb, yeni səngərlər qazılıb. Ön xətdəki mövqelərlə yanaşı, dayaq məntəqələrində də etibarlı müdafiə sistemi qurulub. Silahlı Qüvvələrin yaradılmasının 100 illik yubileyi münasibətilə iyunun 26-da Bakıda təşkil olunan təntənəli hərbi paradda nitq söyləyən Prezident İlham Əliyev Naxçıvan əməliyyatının yüksək məharətlə, peşəkarlıqla həyata keçirildiyini bildirib: “Naxçıvanın 1990-cı illərin əvvəllərində ermənilər tərəfindən zəbt edilmiş 11 min hektar torpağı bu bayram ərəfəsində - keçən ay Naxçıvan Əlahiddə Ümumqoşun Ordusu tərəfindən aparılmış uğurlu əməliyyat nəticəsində azad edildi. Çox böyük mühəndislik və kəşfiyyat işləri aparıldı. Naxçıvan əməliyyatı yüksək məharətlə, peşəkarlıqla həyata keçirildi. Azərbaycan hərbçisi bir daha qəhrəmanlıq, rəşadət göstərmişdir.











## Düşmənin təxribatı öz başında çatlayır

Ermənistanın siyasi-hərbi rəhbərliyi Günnüt kəndinin ordumuz tərəfindən geri alınmasını özünəməxsus şəkildə izah etməyə cəhd etdi. Lakin hələ may ayında Ermənistanın müdafiə və xarici işlər nazirlərinin Ermənistan sərhədinin Naxçıvan istiqamətinə səfər etmələri rəsmi Yerevanın narahatlığından xəbər verirdi. Ermənilər bir neçə gün Azərbaycan Ordusunun bu əməliyyatını özünəməxsus şəkildə izah etməyə çalışdılar. Ermənistanın siyasi-hərbi rəhbərliyi həm də iqtidara yeni gəldiyindən dolayı yollar və müxtəlif uydurmalar hesabına özünə bəraət qazandırmağa cəhd etdi. Hətta bu qrup media nümayəndəsinin məkanı bəlli olmayan, hansısa dağlıq ərazilərə səfərini təşkil edərək guya heç bir şeyin baş vermədiyini sübut etmək istədilər. Lakin Azərbaycan tərəfinin azad edilmiş ərazilərdən nümayiş etdirdiyi video-fotoçəkilişlərə heç bir tutarlı faktla cavab verə bilməyən ermənilər sonda məğlubiyyətlərini etiraf etməli oldular. Azərbaycan əsgərinin Naxçıvanda azad etdiyi ərazilərə mülki əhalinin qayıtması, bu yerlərdə həyatın yenidən bərpa edilməsi artıq müzakirə olunmayan danılmaz faktdır.

Görünən odur ki, Naxçıvan istiqamətində ordumuzun həyata keçirdiyi əks-həmlə əməliyyatı Ermənistanı həqiqi mənada, təşvişə salıb. Günü bu gün də düşmən bütün variantlardan istifadə edərək hansısa nəticəni əldə etmək istəyir. Təbii ki, Azərbaycanın nəzarət altına aldığı yüksəklikləri geri qaytarmaq, ümumiyyətlə, qeyri-mümkündür. Çünki Ermənistan ordusu heç nəyə qadir deyil. Ona görə düşmən müxtəlif təxribatlara əl atmaqla, o cümlədən ərazidə yanğınlar törətməklə vəziyyəti xeyrinə dəyişməyə cəhd edir. Amma elə bu yanğın da bumeranq effekti verərək Ermənistanın özünə ziyan vurub. Belə ki, erməni əsgərləri bir neçə gün əvvəl gecə saatlarında açılan atəşlərlə yeni əldə etdiyimiz ərazilərimizi yandırmağa çalışıb. Lakin külək şimal tərəfə, Ermənistan istiqamətinə əsdiyinə görə, həmin yanğın erməni kəndlilərinin təsərrüfatlarını və düşmənin postlarını yandıraraq məhv edib.

Qeyd edək ki, Azərbaycan əsgərlərinin düşmən tərəfdə mülki obyektlərə ziyan vurmaq imkanı olsa da, bunu etmir. Çünki bizim hədəfimiz mülki vətəndaşlar və təsərrüfatlar deyil.

Azərbaycan Ordusunun uzun illərdən sonra tarixi torpaqlarımıza nəzarət etməsi mühüm nailiyyətdir. Bu həm torpaqlarımızın işğaldan azad olunması, həm də kənd təsərrüfatı üçün yararlı torpaqlardan istifadə etməyə imkan yaranması deməkdir. Sərhəddə yerləşən bu yerlərin etibarlı müdafiəsi, zəngin bitki örtüyü arıçılıqla, maldarlıq və heyvandarlıqla məşğul olanlar üçün çox əlverişlidir. Artıq bu imkanlardan səmərəli istifadə olunur.

Bütövlükdə, son dövrlər cəbhə xəttində baş verənlər, ordumuzun döyüş qabiliyyətinin artırılması istiqamətində görülən işlər bir daha ondan xəbər verir ki, Azərbaycan dövləti işğal faktı ilə heç vaxt barışmayacaq, bir qarış da torpağını düşmənə güzəştə getməyəcək. Yaxında olan böyük qələbənin işartıları artıq görünməkdədir.

***Rəşad CƏFƏRLİ,***
***“Azərbaycan”***

## Prezident İlham ƏLİYEV:

# “Bizim gözəl ənənələrimiz, milli dəyərlərimiz var”




Bizim gözəl ənənələrimiz, milli dəyərlərimiz var. Biz onları qoruyuruq və siz gənclər onları yaşatmalısınız. Bu, böyük bir mirasdır, böyük mədəni irsdir, bizim zənginliyimizdir. Bizim musiqimiz, xalçaçılıq sənətimiz, incəsənətimiz, ədəbiyyatımız, ana dilimiz - bütün bunlar bizim ən böyük sərvətlərimizdir. Biz bu sərvətləri bütün dövrlərdə - çar Rusiyası, Sovet İttifaqı dövrlərində qorumuşuq. Ona görə bir xalq kimi biz bu gün inkişaf edirik. Özümüzü dünyaya təqdim etmişik. Əlbəttə ki, biz müstəqillik dövründə bu dəyərləri daha da qorumalıyıq. Dövlət siyasəti var və mən Prezident kimi bu məsələlərə xüsusi diqqət göstəririm. Bütün dövlət qurumları, eyni zamanda, ictimai təşkilatlar bu işlərlə məşğul olurlar. Ancaq burada ardıcıllıq təmin edilməlidir. Bu ardıcıllığı siz gənclər təmin edəcəksiniz.

AZƏRTAC xəbər verir ki, “İlham Əliyev. İnkişaf - məqsədimizdir” çoxcildliyinin 64-cü kitabında yer alan bu fikirləri dövlət başçısı 2014-cü il avqustun 28-də Beyləqanda yeni istifadəyə verilən Gənclər Mərkəzində rayon gənclərinin və ictimaiyyətinin nümayəndələri ilə görüşündə deyib.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri akademik Ramiz Mehdiyevin buraxılışına məsul olduğu çoxcildliyin 64-cü kitabındakı materiallar 2014-cü ilin iyulundan sentyabrınadək olan dövrü əhatə edir.

Nəşrdə Azərbaycan Prezidentinin İtaliya Respublikasına rəsmi səfəri çərçivəsində keçirdiyi görüşlərə, bu ölkənin jurnalistlərinə müsahibəsinə, Rusiya Federasiyasının Soçi şəhərinə, NATO Sammitində iştirak etmək üçün Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığına işgüzar səfərlərinə, Uelsin Nyuport şəhərində NATO Sammitində çıxışına, habelə Türkiyə Respublikası Prezidentinin və Baş nazirinin, Malayziyanın Baş nazirinin Azərbaycana rəsmi səfərləri, Bolqarıstan Prezidentinin, Monteneqronun və Yunanıstanın Baş nazirlərinin ölkəmizə səfərləri zamanı dövlət başçısının apardığı danışıqlara, eləcə də imzalanan sənədlərə, mətbuata bəyanatlara dair materiallar toplanıb.

Kitabda Prezident İlham Əliyevin Böyük Britaniya, İran, Almaniya, Serbiya, İsrail, Rusiya və başqa dövlətlərin, Avropa İttifaqı və digər beynəlxalq təşkilatların ölkəmizə səfər etmiş yüksəkvəzifəli şəxslərini, Azərbaycana yeni təyin olunmuş səfirləri qəbul etməsinə dair informasiyalar da yer alıb. Azərbaycan Prezidenti bütün görüş və danışıqlarda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ məsələsinin həllində prinsipial mövqe nümayiş etdirib, diqqəti Ermənistanın işğalçılıq siyasətinə yönəldib, dünya ictimaiyyətini regionun inkişafına əngəl törədən Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində həllinə dəstək verməyə çağırıb.

Nəşrdə, həmçinin dövlət başçısının “Mədəniyyətlərarası dialoq: mədəniyyət və din arasında qarşılıqlı əlaqə” mövzusunda 2014-cü il mədəniyyətlərarası dialoqun dini ölçüsü üzrə Avropa Şurasının mübadilə görüşünün iştirakçılarına məktubu, Ramazan bayramı münasibətilə Azərbaycan xalqına təbrikinin mətni və digər məktubları yer alıb.

Çoxcildliyin bu kitabında Azərbaycan Prezidentinin Xızı, Ağdam, Bərdə, Beyləqan və Füzuli rayonlarına səfərlərinə, ictimaiyyət nümayəndələri ilə görüşlərinə, Bakıda və regionlarda müxtəlif infrastruktur obyektlərinin açılışlarında iştirakına, əsaslı təmir və yenidənqurma işlərindən sonra orta məktəblərdə yaradılan şəraitlə tanışlığına dair informasiyalar da verilib.

Kitaba “Qeydlər”, “Şəxsi adlar”, “Coğrafi adlar” göstəriciləri daxil edilib.

“Azərnəşr” tərəfindən buraxılan 64-cü kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

# “Uman yerdən küsərlər”

## Prezident İlham ƏLİYEV: *“Bu qəzalar baş verməməli idi. Əgər baş versəydi belə, fəsadlara gətirib çıxarmamalı idi”*

**Ölkənin enerji sistemində bir neçə gün əvvəl yaranmış məlum vəziyyətlə bağlı yaşadığımız çətinliklər, qarşılaşdığımız problemlər bizə bir daha göstərdi ki, müasir həyatı elektriksiz təsəvvür etmək belə, mümkün deyil.**

Adamın qədir-qiyməti yoxluğunda bilindiyi kimi, elektrik enerjisinin də sıravi adamdan tutmuş iqtisadiyyatacan nə demək olduğu işıqlar sönəndə üzə çıxır. Özü də o qədər ki, bu dünya elektrikləşənəcən adamların necə yaşadıqlarına heyrətimizi gizlədə bilmirik, bəzənsə qulağımızı dartıb o dövrdə doğulmadığımız üçün şükür edirik. Baxmayaraq ki, müstəqilliyinə təzəcə qovuşmuş Azərbaycanda işığın qrafiklə verildiyi vaxtdan çox yox, cəmi 20-25 il ötüb.

Amma sonradan görülən tədbirlər - istifadəyə verilən əlavə güclər, büsbütün yenidən qurulan stansiyalar hesabına ölkədə bu problem tezliklə həll olundu və əhali elektrik enerjisinin verilişində hətta qısa fasiləni də qəbul və “həzm” etməməyə başladı. Belə götürəndə, əhalinin bu tələbkarlığının əsası da var. Təkcə son 15 ildə 2500 meqavat gücündə yeni elektrik stansiyaları istifadəyə verilibsə, bu hesaba ölkənin hazırkı enerji potensialı 6400 meqavata çatıbsa, üstəlik, tikilən yeni stansiyaların coğrafiyası (Bakı, Sumqayıt, Şirvan, Astara, Xaçmaz, Şəki, Quba, üstə gəl bir çox bölgələrdəki SES-lər) bütün regionları əhatə edirsə, əhali, eləcə də digər qrup istehlakçılar enerji təchizatından niyə narazı qalmalıdırlar ki?! “Uman yerdən küsərlər” - deyirlər. Hamımız görür və şahidlik edirik ki, dövlət tərəfindən ölkənin enerji təhlükəsizliyinin etibarlı təminatı üçün bütün tədbirlər görülür, bunun üçün lazım olan zamanda lazım olan qədər vəsait ayrılır. Elə isə kiminsə məsuliyyətsizliyi üzündən niyə saatlarla, günlərlə işıqsız qalmalıyıq, yaxud nəyə görə iqtisadiyyatımıza ziyan dəyməlidir, özü də ilin-günün bu vaxtında.

Yəqin ki, nəyə işarə vurduğumuz aydındır. Bəli, söhbət yazımızın əvvəlində xatırlatdığımız qəza, onun fəsadları və bununla bağlı Prezidentin yanında keçirilən müşavirədən gedir. Mövzuya dönə-dönə qayıdılmasına gəldikdə, bu da səbəbsiz deyil. Çünki iyulun 2-3-nə keçən gecə və iyulun 3-ü axşamtərəfi Azərbaycanın işıqsız qalması sıradan bir qəza və həmin qəzanın sıradan bir nəticəsi deyildi. Qəzadan heç kimin və heç bir ölkənin sığortalanmaması həqiqətdir və bunu inkar etmək mümkün deyil. Amma müşavirədəki müzakirələrdən də məlum olduğu kimi, Mingəçevir İES-dəki hadisə daha çox insan faktoru, daha doğrusu, məsuliyyətsizliyi üzündən baş verdiyindən bəraətə imkan verən həmin həqiqətin üstündən bu yerdə qara bir xətt çəkmək lazım gəlir. Niyəsini Prezident sözügedən müşavirədə belə açıqlamışdır: “Bu qəzalar baş verməməli idi. Əgər baş versəydi belə, fəsadlara gətirib çıxarmamalı idi... Dünyanın hər bir ölkəsində heç kim qəzadan sığortalı deyil. Ancaq qəza lokal xarakter daşımalıdır. Bir stansiyada baş vermiş qəza bütün enerji sistemimizə böyük zərbə vurmamalı idi”.

Zərbə həqiqətən böyük olmuşdur. Ən çox əziyyəti isə bütün ölkə boyu əhali çəkmişdir. İkinci qəzadan sonra yalnız metropolitenin stansiyalarından və tunellərdə qalmış qatarlarından 30 min nəfər təxliyə edilmişdir. İqtisadiyyatımız da az ziyan çəkməmişdir. “Təkcə neft şirkətinin indi burada deyilən ziyanını hesablasaq, ölkəyə nə qədər böyük iqtisadi ziyan dəydiyi məlum olar” - bu sözləri də Prezident müşavirədə səsləndirmişdir.

***Ardı 4-cü səh.***

## “Xəzər dənizinin Azərbaycan sektorunda Əşrəfi - Dan ulduzu - Aypara sahəsinin kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında” Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə Statoyl Azərbaycan Əşrəfi Dan Ulduzu Aypara BV və SOCAR-ın Ortaq neft şirkəti arasında Sazişin qəbul və təsdiq edilməsi, həyata keçirilməsinə icazə verilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

2018-ci il mayın 30-da Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (“SOCAR”), Statoyl Azərbaycan Əşrəfi Dan Ulduzu Aypara BV (“Statoyl”) və SOCAR-ın Ortaq neft şirkəti (“ONŞ”) arasında Saziş bağlanmışdır.

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikasının Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

1. “Xəzər dənizinin Azərbaycan sektorunda Əşrəfi - Dan ulduzu - Aypara sahəsinin kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında” Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə Statoyl Azərbaycan Əşrəfi Dan Ulduzu Aypara BV və SOCAR-ın Ortaq neft şirkəti arasında Saziş (bundan sonra - Saziş) qəbul və təsdiq edilsin, onun həyata keçirilməsinə icazə verilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən sazişdə iştirak edən podratçılara verilən Azərbaycan Respublikası hökumətinin təminatı və öhdəlikləri (bundan sonra hökumət təminatı) qəbul edilsin və onların həyata keçirilməsinə icazə verilsin.

3. Sazişin əsas mətninə edilmiş on iki (12) əlavə və SOCAR-ın Ortaq neft şirkətinin yaradılmasına dair Qoşma (bundan sonra əlavələr) qəbul edilsin və onların həyata keçirilməsinə icazə verilsin.

4. Bu qanun qüvvəyə mindikdən sonra saziş, hökumət təminatı və əlavələr qanun olurlar. Sazişdə konkret surətdə başqa hallar göstərilməyibsə, saziş, hökumət təminatı və əlavələr sazişin qüvvədə olduğu müddət ərzində bu sazişə, hökumət təminatına və əlavələrə uyğun gəlməyən və ya zidd olan Azərbaycan Respublikasının hər hansı başqa mövcud və ya qəbul oluna biləcək qanunlarının, fərmanlarının, yaxud inzibati sərəncamlarının (və ya onların hissələrinin) müddəalarından üstün tutulur.

5. Bu qanun qüvvəyə mindikdən sonra sazişdə nəzərdə tutulan kontrakt sahəsinin istənilən hissəsi barəsində əvvəllər bağlanmış hər hansı saziş, kontrakt və ya bu cür başqa sənədlə verilə bilən bütün digər hüquq və vəzifələr ləğv edilir, habelə bu qanun qüvvəyə mindikdən sonra sazişin, hökumət təminatının və əlavələrin şərtlərinə müvafiq surətdə və qüvvədə olduğu bütün müddət ərzində sazişin pay iştirakçılarına kontrakt sahəsində neft-qaz əməliyyatları aparmaq üçün müstəsna hüquq verilir.

6. Bu qanun qüvvəyə mindikdən sonra podratçının (və ya onun hüquq varislərinin) saziş, hökumət təminatı və əlavələr üzrə əldə etdiyi hüquqlar və mənafelər podratçının qabaqcadan razılığı olmadan dəyişdirilə, düzəldilə və ya azaldıla bilməz.

7. Sazişdən irəli gələn hüquq və öhdəliklərin yerinə yetirilməsi üçün sazişin iştirakçılarına bütün lazımi lisenziyalar, gömrük icazələri, vizalar, başqa səlahiyyətlər və sanksiyalar verilir.

8. Sazişə və ya əlavələrə hər hansı əlavələr, düzəlişlər, dəyişikliklər yalnız sazişin və əlavələrin tərəflərinin yazılı razılığı ilə edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 iyun 2018-ci il*

## “Xəzər dənizinin Azərbaycan sektorunda “Qarabağ” neft yatağının işlənməsi ilə əlaqədar” Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə Statoyl Azərbaycan Qarabağ BV və SOCAR Qarabağ LLSi arasında Risk xidmət Sazişinin qəbul və təsdiq edilməsi, həyata keçirilməsinə icazə verilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

2018-ci il mayın 30-da Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (“SOCAR”), Statoyl Azərbaycan Qarabağ BV (“Statoyl”) və SOCAR Qarabağ LLSi (“SOCAR Qarabağ”) arasında Risk xidməti Sazişi bağlanmışdır.

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikasının Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

1. “Xəzər dənizinin Azərbaycan sektorunda “Qarabağ” neft yatağının işlənməsi haqqında” Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə Statoyl Azərbaycan Qarabağ BV və SOCAR Qarabağ LLSi arasında Risk xidməti Sazişi (bundan sonra - Saziş) qəbul və təsdiq edilsin, onun həyata keçirilməsinə icazə verilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən sazişdə iştirak edən podratçılara verilən Azərbaycan Respublikası hökumətinin təminatı və öhdəlikləri (bundan sonra - hökumət təminatı) qəbul edilsin və onların həyata keçirilməsinə icazə verilsin.

3. Sazişin əsas mətninə edilmiş on iki (12) əlavə (bundan sonra - əlavələr) qəbul edilsin və onların həyata keçirilməsinə icazə verilsin.

4. Bu qanun qüvvəyə mindikdən sonra saziş, hökumət təminatı və əlavələr qanun olurlar. Sazişdə konkret surətdə başqa hallar göstərilməyibsə, saziş, hökumət təminatı və əlavələr sazişin qüvvədə olduğu müddət ərzində bu sazişə, hökumət təminatına və əlavələrə uyğun gəlməyən və ya zidd olan Azərbaycan Respublikasının hər hansı başqa mövcud və ya qəbul oluna biləcək qanunlarının, fərmanlarının, yaxud inzibati sərəncamlarının (və ya onların hissələrinin) müddəalarından üstün tutulur.

5. Bu qanun qüvvəyə mindikdən sonra sazişdə nəzərdə tutulan kontrakt sahəsinin istənilən hissəsi barəsində əvvəllər bağlanmış hər hansı saziş, kontrakt və ya bu cür başqa sənədlə verilə bilən bütün digər hüquq və vəzifələr ləğv edilir, habelə bu qanun qüvvəyə mindikdən sonra sazişin, hökumət təminatının və əlavələrin şərtlərinə müvafiq surətdə və qüvvədə olduğu bütün müddət ərzində sazişin pay iştirakçılarına kontrakt sahəsində neft-qaz əməliyyatları aparmaq üçün müstəsna hüquq verilir.

6. Bu qanun qüvvəyə mindikdən sonra podratçının (və ya onun hüquq varislərinin) saziş, hökumət təminatı və əlavələr üzrə əldə etdiyi hüquqlar və mənafelər podratçının qabaqcadan razılığı olmadan dəyişdirilə, düzəldilə və ya azaldıla bilməz.

7. Sazişdən irəli gələn hüquq və öhdəliklərin yerinə yetirilməsi üçün sazişin iştirakçılarına bütün lazımi lisenziyalar, gömrük icazələri, vizalar, başqa səlahiyyətlər və sanksiyalar verilir.

8. Sazişə və ya əlavələrə hər hansı əlavələr, düzəlişlər, dəyişikliklər yalnız sazişin və əlavələrin tərəflərinin yazılı razılığı ilə edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 iyun 2018-ci il*

## “Yanğın təhlükəsizliyi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq, “Yanğın təhlükəsizliyi haqqında” Azərbaycan Respublikasının Qanununu “Məktəbəqədər təhsil haqqında” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

“Yanğın təhlükəsizliyi haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 5, maddə 415; 2001, № 12, maddə 736; 2002, № 5, maddələr 235, 237,№ 12, maddə 706; 2004, № 4, maddə 202, № 6, maddə 396, № 10, maddələr 761, 779; 2007, № 5, maddə 442, № 10, maddə 938; 2008, № 8, maddə 695; 2009, № 6, maddə 398; 2014, № 10, maddə 1169; 2015, № 2, maddə 102; 2017, № 6, maddə 1022, № 12, I kitab, maddə 2204) 16-cı maddəsinin üçüncü hissəsində “Məktəbəqədər tərbiyə müəssisələrində uşaqlara və ümumtəhsil məktəblərində şagirdlərə” sözləri “Məktəbəqədər və ümumi təhsil müəssisələrində” sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 may 2018-ci il*

## “Yanğın təhlükəsizliyi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 18 may tarixli 1148-VQD nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Yanğın təhlükəsizliyi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 18 may tarixli 1148-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Yanğın təhlükəsizliyi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Yanğın təhlükəsizliyi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 iyul 2018-ci il*

## “Sanitariya-epidemioloji salamatlıq haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq, “Sanitariya-epidemioloji salamatlıq haqqında” Azərbaycan Respublikasının Qanununu “Məktəbəqədər təhsil haqqında” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

“Sanitariya-epidemioloji salamatlıq haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992, № 22, maddə 947; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 5, maddə 419; 2001, № 3, maddə 143; 2004, № 2, maddə 57, № 4, maddə 199; 2007, № 11, maddə 1052; 2009, № 12, maddə 968; 2014, № 10, maddə 1153; 2016, № 6, maddə 980; 2017, № 12, I kitab, maddə 2200) aşağıdakı dəyişikliklər edilsin:

1. 23-cü maddədə “məktəbəqədər uşaq tərbiyə müəssisələrində, orta məktəblərdə və texniki peşə məktəblərində” sözləri “təhsili müəssisələrində” sözləri ilə əvəz edilsin.

2. 39-cu maddənin on altıncı abzasında “uşaq tərbiyə və yeniyetmə müəssisələrində, texniki peşə məktəblərində, habelə” sözləri “təhsili müəssisələrində, habelə digər” sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 may 2018-ci il*

## Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişikliklər edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Əmək Məcəlləsinə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 4, maddə 213; 2001, № 3, maddə 143, № 6, maddə 362, № 11, maddələr 672, 679, № 12, maddə 731; 2002, № 1, maddə 2, № 5, maddə 241, № 6, maddə 328; 2003, № 1, maddələr 9, 23; 2004, № 1, maddə 10, № 2, maddə 57, № 3, maddə 133, № 6, maddə 413, № 7, maddə 505, № 9, maddə 672, № 12, maddə 981; 2005, № 3, maddə 151, № 4, maddə 278, № 7, maddə 560, № 10, maddə 874, № 11, maddə 1001, № 12, maddə 1094; 2006, № 3, maddələr 220, 222, № 5, maddə 385, № 11, maddə 923, № 12, maddələr 1004, 1025, 1030; 2007, № 5, maddələr 401, 437, № 6, maddə 560, № 8, maddə 756, № 11, maddələr 1049, 1053; 2008, № 3, maddə 156, № 7, maddələr 600, 602, № 10, maddə 887, № 11, maddə 960; 2009, № 2, maddə 48, № 5, maddə 294, № 6, maddə 399, № 12, maddələr 949, 969; 2010, № 2, maddələr 70, 75, № 4, maddə 275; 2011, № 1, maddə 11, № 2, maddələr 70, 71, № 6, maddə 464, № 7, maddə 598; 2012, № 11, maddə 1054; 2013, № 2, maddələr 89, 101, № 11, maddə 1268; 2014, № 2, maddə 92, № 10, maddə 1162, № 11, maddə 1339, № 12, maddə 1527; 2015, № 2, maddə 97, № 3, maddə 250, № 6, maddə 680; 2016, № 2 (I kitab), maddələr 190, 201, № 5, maddə 847, № 11, maddə 1767; 2017, № 6, maddələr 1031, 1048; № 12, I kitab, maddələr 2187, 2189; 2018, № 1, maddə 13) aşağıdakı dəyişikliklər edilsin:

1. 66-cı maddənin on birinci abzasının sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və maddəyə aşağıdakı məzmunda on ikinci abzas əlavə edilsin:

“Azərbaycan Respublikasında dövlət ümumi təhsil müəssisələrində işləyən təhsilverənlər.”.

2. Aşağıdakı məzmunda 67-2-ci maddə əlavə edilsin:

“Maddə 67-2. Azərbaycan Respublikasında dövlət ümumi təhsil müəssisələrində işləyən təhsilverənlərin sertifikatlaşdırılması

1. Azərbaycan Respublikasında dövlət ümumi təhsil müəssisələrində işləyən təhsilverənlərin peşəkarlıq səviyyəsinin və peşə yararlılığının yoxlanılması məqsədi ilə həmin işçilər “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada sertifikatlaşdırmaya cəlb edilirlər.

2. Hamilə qadınların, uşağının üç yaşınadək sosial məzuniyyətdə olan və həmin məzuniyyət bitdikdən sonra bir ildən az müddətdə müvafiq vəzifədə (peşədə) çalışan qadınların (uşağını təkbaşına böyüdən kişilərin) sertifikatlaşdırılması keçirilmir.

3. İlk dəfə işə qəbul olunanlar beş il müddətində, eləcə də azı üç dəfə sertifikatlaşdırmadan keçmiş şəxslər sertifikatlaşdırmaya cəlb edilmirlər.

4. “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq sertifikatlaşdırmadan təkrar keçməyən işçinin pedaqoji fəaliyyətə buraxılmaması onunla bağlanmış əmək müqaviləsinin bu məcəllənin 70-ci maddəsinin “c” bəndinə müvafiq olaraq işəgötürən tərəfindən ləğv edilməsi üçün əsas ola bilər.”.

3. 70-ci maddənin “Qeyd” hissəsinin birinci cümləsində “komissiyası” sözündən sonra “Azərbaycan Respublikasında dövlət ümumi təhsil müəssisələrində işləyən təhsilverənlərin və” sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 iyun 2018-ci il*

## “Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2018-ci il 12 iyun tarixli 1188-VQ nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2018-ci il 12 iyun tarixli 1188-VQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 iyul 2018-ci il*

## “Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq, “Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında” Azərbaycan Respublikasının Qanununu “Məktəbəqədər təhsil haqqında” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

“Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 7, maddə 710; 2011, № 12, maddə 1088) aşağıdakı dəyişikliklər edilsin:

1. 13.1-ci maddədə “orta peşə-ixtisas və texniki-peşə təhsili” sözləri “peşə təhsili və əlavə təhsil” sözləri ilə əvəz edilsin.

2. 13.2-ci maddədə “tərbiyə” sözü “təhsil” sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 may 2018-ci il*

## “Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 18 may tarixli 1146-VQD nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 18 may tarixli 1146-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 iyul 2018-ci il*

## “Sanitariya-epidemioloji salamatlıq haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 18 may tarixli 1149-VQD nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Sanitariya-epidemioloji salamatlıq haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 18 may tarixli 1149-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Sanitariya-epidemioloji salamatlıq haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Sanitariya-epidemioloji salamatlıq haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 iyul 2018-ci il*

# "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 20-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 472; 2001, № 3, maddə 148; 2002, № 5, maddə 238; 2003, № 4, maddə 178; 2004, № 2, maddə 57, № 4, maddə 201; 2008, № 2, maddə 47; 2009, № 10, maddə 769; 2013, № 3, maddə 209; 2014, № 4, maddə 338, № 10, maddə 1152; 2016, № 12, maddə 2011; 2017, № 2, maddə 142, № 6, maddə 1013) aşağıdakı dəyişikliklər edilsin:

1. 1-ci maddə üzrə:

1.1. 1-ci hissənin on birinci abzasının sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda on ikinci - on altıncı abzaslar əlavə edilsin:

"ekoloji ekspertiza - ekoloji ekspertiza obyektlərinin ətraf mühitə təsirini müəyyən etmək məqsədi ilə həmin obyektlərin müvafiq standartda, texniki reqlamentdə və digər normativ hüquqi aktda müəyyən olunmuş ekoloji tələblərə uyğunluğunun və realizəsinin mümkünlüyünün əvvəlcədən qiymətləndirilməsi;

dövlət ekoloji ekspertizası - müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən bu qanunla müəyyən edilmiş qaydada və hallarda aparılan ekoloji ekspertiza;

ictimai ekoloji ekspertiza - fiziki şəxslər, qeyri-hökumət təşkilatları, vətəndaşların təşəbbüs qrupları və bələdiyyələrin məhəllə komitələri (bundan sonra - ictimai ekoloji ekspertizanın təşkilatçıları) tərəfindən bu qanunun tələbləri nəzərə alınmaqla aparılan ekoloji ekspertiza;

dövlət ekoloji ekspertizasının rəyi (bundan sonra - ekoloji ekspertiza rəyi) - dövlət ekoloji ekspertizasının nəticələrinə dair rəsmi sənəd;

ictimai ekoloji ekspertiza rəyi - ictimai ekoloji ekspertizanın nəticələrinə dair tövsiyə xarakterli sənəd.";

1.2. aşağıdakı məzmunda ikinci hissə əlavə edilsin:

"Bu qanunda istifadə olunan digər anlayışlar "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında", "Ekoloji təhlükəsizlik haqqında", "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının qanunları və başqa normativ hüquqi aktlar ilə müəyyən edilmiş mənaları verir.".

2. 3-cü maddənin birinci hissəsi üzrə:

2.1. 6-cı abzasda "ətraf mühitin mühafizəsi haqqında qanunvericiliyin" sözləri "bu qanunun və ətraf mühitin mühafizəsi sahəsində digər normativ hüquqi aktların" sözləri ilə əvəz edilsin;

2.2. 8-ci abzasda "ictimai birliklərin" sözləri "vətəndaş cəmiyyəti institutlarının" sözləri ilə əvəz edilsin;

2.3. 9-cu abzasın sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda onuncu - on üçüncü abzaslar əlavə edilsin:

"ekoloji ekspertizaya təqdim olunan məlumatların dolğunluğu və düzgünlüyü;

ekoloji ekspertizanın həyata keçirilməsində qanunçuluğun, aşkarlığın və şəffaflığın təmin edilməsi;

təbiətdən tənzimlənməyən istifadənin potensial təhlükəliliyinin nəzərə alınması;

ətraf mühitin mühafizəsi tədbirləri barədə əhalinin məlumatlandırılması.".

3. 4-cü maddə üzrə:

3.1. 1.5-ci bənd ləğv edilsin;

3.2. 1.8-ci bənddən "təsərrüfat fəaliyyətinin ekoloji cəhətdən təhlükəli formalarının siyahısını, onlara xüsusi icazə verilməsi qaydalarını, həmçinin" sözləri çıxarılsın, "oxşar" sözü "ekoloji cəhətdən təhlükəli" sözləri ilə əvəz edilsin;

3.3. 1.12-ci bənd aşağıdakı redaksiyada verilsin:

"1.12. təbiətdən istifadə ilə bağlı "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş lisenziya və icazələri vermək, bu qanunun 15-ci maddəsinə uyğun olaraq müqavilələr bağlamaq.".

4. 11-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 11. Təbiətdən istifadə sahəsində lisenziya və icazə**

11.1. "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq təbiətdən istifadə sahəsində lisenziya və ya icazə tələb olunan müvafiq fəaliyyət növləri və ya hərəkətlər belə lisenziya və ya icazə alındıqdan sonra həyata keçirilir.

11.2. Təbiətdən istifadə sahəsində lisenziya və icazə "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq "bir pəncərə" prinsipi əsasında verilir.".

5. 14-cü maddə ləğv edilsin.

6. 15-ci maddə üzrə:

6.1. 1-ci hissədə "Qanunvericiliklə" sözü "Qanunla" sözü ilə əvəz edilsin;

6.2. 2-ci hissədən "xüsusi" sözü çıxarılsın;

6.3. 3-cü hissənin birinci cümləsində "Xüsusi icazə" sözləri "İcazə" sözü ilə, ikinci cümləsində "Xüsusi icazə geri alınarsa" sözləri "İcazə ləğv edilərsə" sözləri ilə əvəz edilsin;

6.4. 4-cü hissə ləğv edilsin.

7. 21-ci maddənin birinci hissəsində "qanunvericiliklə müəyyən edilmiş qaydada" sözləri "Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq akkreditasiya olunmuş uyğunluğu qiymətləndirən qurum tərəfindən" sözləri ilə əvəz edilsin.

8. 30-cu maddə üzrə:

8.1. 3-cü hissədən "xüsusi" sözü çıxarılsın;

8.2. 4-cü hissə ləğv edilsin.

9. 35-ci maddənin ikinci hissəsindən "xüsusi" sözü çıxarılsın.

10. 40-cı maddənin 2-ci hissəsində "dövlət ekoloji ekspertizası orqanının" sözləri "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) nümayəndələrinin" sözləri ilə əvəz edilsin.

11. 45-ci maddə üzrə:

11.1. birinci hissədə "qanunvericiliyin müəyyən etdiyi" sözləri "qanunla müəyyən edilmiş" sözləri ilə əvəz edilsin, "xüsusi icazə" sözləri "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq lisenziya və ya icazə" sözləri ilə əvəz edilsin.

11.2. ikinci hissədə "olmadıqda müvafiq icra hakimiyyəti orqanlarının xüsusi icazəsi ilə yol verilir" sözləri "olmadan yol verilmir" sözləri ilə əvəz edilsin.

12. 47-ci maddənin 2-ci hissəsində "yalnız müvafiq icra hakimiyyəti orqanının icazəsi ilə" sözləri "beynəlxalq müqavilələrlə müəyyən edilmiş qaydada" sözləri ilə əvəz edilsin.

13. 50-ci maddənin ikinci hissəsi aşağıdakı redaksiyada verilsin:

"Ekoloji ekspertiza dövlət və ictimai ekoloji ekspertiza formalarında həyata keçirilir.".

14. 51-ci və 52-ci maddələr aşağıdakı redaksiyada verilsin:

**"Maddə 51. Ekoloji ekspertizanın məqsəd və vəzifələri**

1. Ekoloji ekspertizanın əsas məqsədi ekoloji ekspertiza obyektlərinin ətraf mühitə və insan sağlamlığına birbaşa və ya dolayı mənfi təsirinin və onlarla bağlı nəticələrin aşkar edilməsi, qarşısının alınması və proqnozlaşdırılmasından, qəbul olunan qərarların ekoloji təhlükəsizlik dərəcəsini və ətraf mühitin mühafizəsi üzrə tədbirlərin səmərəsini müəyyən etməkdən ibarətdir.

2. Ekoloji ekspertizanın vəzifələri aşağıdakılardır:

2.1. ekoloji ekspertiza obyektlərinin ekoloji təhlükəsizlik səviyyəsini və ətraf mühitə potensial təsirini tam, hərtərəfli və elmi əsaslandırılmış təhlil əsasında qiymətləndirmək;

2.2. ətraf mühitə bilavasitə və ya dolayısı ilə təsir göstərə biləcək qərarların qəbul edilməsinin qarşısını almaq;

2.3. ekoloji ekspertiza obyektlərinin ətraf mühitin mühafizəsi və təbii ehtiyatlardan istifadə sahəsində normativ hüquqi aktlara uyğunluğunu müəyyən etmək;

2.4. ətraf mühitin mühafizəsi üzrə tədbirlərin səmərəliliyini, dolğunluğunu və tamlığını qiymətləndirmək və onların ekoloji tələblərə uyğunluğunu müəyyən etmək;

2.5. ekoloji ekspertiza obyektlərinin ətraf mühitə potensial təsiri və onun nəticələri barədə maraqlı şəxsləri məlumatlandırmaq.

**Maddə 52. Dövlət ekoloji ekspertizasına dair tələblər**

1. Dövlət ekoloji ekspertizası bu qanunun 54-cü maddəsində göstərilən obyektlərə münasibətdə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən həyata keçirilir.

2. Dövlət ekoloji ekspertizasının həyata keçirilməsi qaydası, "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

3. Təsərrüfat fəaliyyəti yerin təkindən istifadə ilə bağlı olduqda, həmin fəaliyyətə dair dövlət ekoloji ekspertizası bu işlər "Yerin təki haqqında" Azərbaycan Respublikasının Qanununun 27-ci maddəsinə uyğun olaraq dövlət uçotuna və dövlət qeydiyyatına alındıqdan sonra aparılır.

4. Dövlət ekoloji ekspertizasının obyektləri barədə ekoloji ekspertiza rəyi olmadan sənaye və ərzaq məhsullarının istehsalı, işlərin, xidmətlərin yerinə yetirilməsi və ya Azərbaycan Respublikasının ərazisinə gətirilməsi qadağandır.

5. Dövlət ekoloji ekspertiza obyektləri xüsusi mühafizə olunan təbiət ərazilərinə və obyektlərinə yaxın ərazilərlə bağlı olduqda, dövlət ekoloji ekspertizası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) nümayəndələrinin iştirakı ilə aparılır.

6. Dövlət ekoloji ekspertizası həyata keçirilərkən aşağıdakılar rəhbər tutulur:

6.1. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklər;

6.2. ekoloji ekspertiza obyektlərinin ətraf mühitə təsirinin kompleks (sosial-iqtisadi, ekoloji) qiymətləndirilməsinin nəticələri;

6.3. ekoloji tarazlığın, genofondun və canlı təbiətin müxtəlifliyinin qorunub saxlanılmasının təmin edilməsi zərurəti;

6.4. dövlət ekoloji ekspertizasının keyfiyyətinin və ekoloji ekspertiza rəyinin tərəflərin mövqelərindən asılılığının yolverilməzliyi;

6.5. dövlət ekoloji ekspertizası metodologiyasının inkişafı və təkmilləşdirilməsi üçün şəraitin yaradılması zərurəti.

7. İrihəcmli və mürəkkəb ekoloji ekspertiza obyektlərinin, habelə transsərhəd təsirə malik olan ekoloji ekspertiza obyektlərinin dövlət ekoloji ekspertizasının həyata keçirilməsi üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən Ekspert Komissiyası təşkil olunur.

8. Ekoloji ekspertiza obyektlərinin realizəsi zamanı onların transsərhəd təsiri müəyyən edildikdə, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) ekspert komissiyasının fəaliyyətinə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanla (qurumla) razılaşdırmaqla maraqlı ölkələrin mütəxəssislərini və beynəlxalq ekspertləri cəlb edir.

9. Ekspert Komissiyasının səlahiyyətləri, fəaliyyət qaydası və tərkibi, onun fəaliyyətinə cəlb edilən ekspertlərə dair tələblər, ekspertlərin hüquq və vəzifələri, habelə dövlət ekoloji ekspertizasının həyata keçirilməsinə beynəlxalq ekspertlərin cəlb edilməsi qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilən Əsasnamə ilə tənzimlənir.

10. Sifarişçi dövlət ekoloji ekspertizasının keçirilməsi üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 29-cu və 30-cu maddələrində nəzərdə tutulmuş qaydada ərizə təqdim edir. Ərizəyə aşağıdakı sənədlər əlavə edilir (müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) özü həmin sənədlər barədə məlumatları "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun 18.3-cü maddəsində göstərilən qaydada əldə edə bilmədikdə):

10.1. ərizəçi fiziki şəxs olduqda, şəxsiyyət vəsiqəsinin surəti;

10.2. ərizəçi fərdi sahibkar olduqda, şəxsiyyət vəsiqəsinin surəti və vergi ödəyicisi kimi uçota alınması haqqında şəhadətnamənin surəti;

10.3. ərizəçi hüquqi şəxs, xarici hüquqi şəxsin filialı, nümayəndəliyi olduqda, hüquqi şəxslərin dövlət reyestrindən çıxarışın surəti və vergi ödəyicisi kimi uçota alınması haqqında şəhadətnamənin surəti;

10.4. ərizədə qeyd olunan obyektin üzərində ərizəçinin mülkiyyət, istifadə və ya icarə hüququnu təsdiq edən sənədin surəti (əgər obyektin dövlət ekoloji ekspertizasının keçirilməsi istənilirsə);

10.5. torpaq sahəsindən mülkiyyət, istifadə və ya icarə hüququnu təsdiq edən sənəd;

10.6. dövlət ekoloji ekspertizasının maliyyələşdirilməsini təsdiq edən sənəd;

10.7. nəzərdə tutulan fəaliyyəti barədə məlumat (hər bir istehsalat və xidmət sahəsi göstərilməklə);

10.8. istifadə olunan avadanlıqların texniki sənədləri;

10.9. istehsalatda istifadə olunan əsas və köməkçi xammal növləri barədə məlumat;

10.10. istifadə olunan enerji növləri barədə məlumat;

10.11. müəssisədə su təchizatı və tullantı sularının axıdılması barədə məlumat (texniki şərt);

10.12. əmələ gələn tullantıların idarə olunması, o cümlədən istehsalat tullantılarının təkrar istifadəsinin mümkünlüyü və həcmi barədə məlumat;

10.13. dövlət ekoloji ekspertizası obyektləri üçün layihə sənədlərin hazırlanmasına sərf olunan maliyyə vəsaitinin məbləğinə və ya layihənin ümumi smeta dəyərinə dair sənəd (müqavilə);

10.14. ərazidə aparılmış mühəndisi-geoloji işlərin hesabatı.

11. Dövlət ekoloji ekspertizası bu qanunun 54-cü maddəsinin birinci hissəsinin 2-ci bəndində göstərilən ƏMTQ sənədlərinə və 8-ci bəndində göstərilən ekoloji ekspertiza obyektlərinə münasibətdə həyata keçirildikdə bu hissənin 10.2-10.10-cu bəndlərində nəzərdə tutulan sənədlər və məlumatların təqdim edilməsi tələb olunmur.".

12. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) dövlət ekoloji ekspertizasının təşkili və həyata keçirilməsi, habelə ekoloji ekspertiza rəyinin verilməsi zamanı "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun, bu qanunun və ətraf mühitin mühafizəsi ilə bağlı digər normativ hüquqi aktların tələblərinə riayət olunmasına nəzarəti təmin edir.".

15. 53-cü maddə ləğv edilsin.

16. 54-cü maddə üzrə:

16.1. 1-ci bənddə "proqramların layihələri" sözləri "strateji sənədlərin layihələrinə dair strateji ekoloji qiymətləndirmə (SEQ) sənədləri" sözləri ilə əvəz edilsin;

16.2. 2-ci bənd aşağıdakı redaksiyada verilsin:

"istehsal, sosial, ticarət, ictimai iaşə və digər xidmət obyektləri, infrastruktur obyektləri və komplekslərinin layihələri, onların konservasiyası, ləğv olunması, yeni texnika ilə təchiz edilməsi və genişləndirilməsi üzrə layihələr, texniki-iqtisadi əsaslandırılmalar (TİƏ), ətraf mühitə təsirinin qiymətləndirilməsi (ƏMTQ) və transsərhəd kontekstdə ətraf mühitə təsirin qiymətləndirilməsi sənədləri;";

16.3. 3-cü bənddə "başqa ölkələrdən idxal edilməsinə" sözləri "idxalına və ixracına" sözləri ilə əvəz edilsin;

16.4. 4-cü bənddə "haqqında təlimat-metodik və normativ-texniki sənədlərin" sözləri "sahəsində metodiki təlimatların və texniki normativ hüquqi aktların" sözləri ilə əvəz edilsin;

16.5. 5-ci və 6-cı bəndlər aşağıdakı redaksiyada verilsin:

"5. ərazilərin kompleks ekoloji-tədqiqat materialları, ərazilərə xüsusi mühafizə statusunun verilməsi, ekoloji fəlakət zonalarının və fövqəladə ekoloji vəziyyətin elan olunmasının əsaslandırılması sənədləri, habelə həmin ərazilərin bərpası proqramları;

6. regionların, ayrı-ayrı ərazilərin və təbiət komplekslərinin ekoloji vəziyyətinə dair sənədlər;";

16.6. 7-ci bənddə "təbii resurslardan" sözləri "təbiətdən (təbii ehtiyatlardan)" sözləri ilə, "layihələrinin ekoloji bölmələri" sözləri "və razılaşmaların layihələri" sözləri ilə əvəz edilsin;

16.7. 7-ci bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 8-ci bənd əlavə edilsin:

"8. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən hallarda tikinti layihələrinin ekologiya bölməsi.".

17. 55-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 55. Sifarişçinin və planlaşdırıcı orqanın vəzifələri**

1. Sifarişçinin və planlaşdırıcı orqanın vəzifələri aşağıdakılardır:

1.1. dövlət ekoloji ekspertiza obyektlərinə dair sənədləri bu qanuna və "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq tərtib etmək və vaxtında dövlət ekoloji ekspertizasına təqdim etmək;

1.2. dövlət ekoloji ekspertizasının həyata keçirilməsi üçün zəruri olan əlavə məlumatları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təqdim etmək;

1.3. dövlət ekoloji ekspertizasının həyata keçirilməsini bu qanunla müəyyən edilən qaydada maliyyələşdirmək;

1.4. dövlət ekoloji ekspertizasının həyata keçirilməsi zamanı elmi tədqiqat və axtarış işlərinin (əlavə axtarışlar, nəzarət ölçmələri, sınaq nümunələrinin götürülməsi, analizi və sair) aparılması tələb olunduqda, həmin işləri maliyyələşdirmək və onların həyata keçirilməsini təmin etmək.".

18. 56-cı maddənin mətni aşağıdakı redaksiyada verilsin:

"1. Dövlət ekoloji ekspertizasının maliyyələşdirilməsi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada dövlət büdcəsi və sənədlərin sifarişçisinin vəsaiti hesabına həyata keçirilir.

2. Bu qanunun 54-cü maddəsi ilə müəyyən edilən dövlət ekoloji ekspertizası obyektləri üzrə layihələrin həyata keçirilməsinə və maliyyələşdirilməsinə yalnız ekoloji ekspertiza rəyi olduqda yol verilir.".

19. 57-ci və 58-ci maddələr aşağıdakı redaksiyada verilsin:

**"Maddə 57. Dövlət ekoloji ekspertizasının rəyi**

1. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) ekoloji ekspertiza obyekti üzrə layihələrin həyata keçirilməsinin mümkünlüyü və ətraf mühitə təsirlərin yol verilə bilən həddi barədə əsaslı nəticələrdən ibarət ekoloji ekspertiza rəyi verir.

2. Ekoloji ekspertiza rəyi "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada 5 (beş) il müddətinə verilir.

3. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) verdiyi ekoloji ekspertiza rəylərinin "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun 6.3.2-ci maddəsinə uyğun olaraq reyestrini aparır, onların rəsmi internet səhifəsində yerləşdirilməsini, habelə sifarişçiyə və aidiyyəti dövlət orqanlarına göndərilməsini təmin edir.

4. Ekoloji ekspertiza rəyinin ləğvi, bərpası, dayandırılması və dublikatının verilməsi "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanunu ilə müəyyən edilmiş qaydada həyata keçirilir.

5. Ekoloji ekspertiza rəyi "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun 23.1.1-ci və 23.1.2-ci maddələrində göstərilənlərlə yanaşı, aşağıdakı hallarda yenidən rəsmiləşdirilir:

5.1. şəxsin soyadı, adı, atasının adı dəyişdikdə;

5.2. ekoloji ekspertiza sənədlərində dəyişikliklər edildikdə;

5.3. ətraf mühitin mühafizəsi sahəsində normativ və texniki normativ hüquqi aktlarda müəyyən edilmiş ekoloji tələblər dəyişdikdə;

5.4. rəyin qüvvədə olma müddəti başa çatdıqda.

**Maddə 58. İctimai ekoloji ekspertizaya dair tələblər**

1. İctimai ekoloji ekspertiza dövlət ekoloji ekspertizasının həyata keçirilməsindən asılı olmayaraq, ictimai ekoloji ekspertizanın təşkilatçılarının təşəbbüsü ilə təşkil olunur və həyata keçirilir.

2. İctimai ekoloji ekspertizanın aparılması qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

3. İctimai ekoloji ekspertiza dövlət ekoloji ekspertizasından əvvəl və ya onunla eyni vaxta keçirilir.

4. İctimai ekoloji ekspertizanın təşkilatçıları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanı (qurumu) və bələdiyyəni ictimai ekoloji ekspertizanın keçirilməsinə 5 (beş) gün qalmış bu barədə yazılı məlumatlandırmalıdır.

5. Ekoloji ekspertiza obyektləri "Dövlət sirri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq dövlət sirri təşkil edən məlumatlara və ya qanunla qorunan digər məlumatlara aid edildikdə ictimai ekoloji ekspertizanın keçirilməsinə yol verilmir və bu barədə ictimai ekoloji ekspertizanın təşkilatçılarına məlumat verilir.

6. İctimai ekoloji ekspertiza rəyi tövsiyə xarakteri daşıyır.

7. İctimai ekoloji ekspertiza rəyi onun təşkilatçıları tərəfindən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma), bələdiyyəyə, planlaşdırıcı orqana və sifarişçiyə təqdim edilir, habelə kütləvi informasiya vasitələri ilə ictimaiyyətə çatdırılır.".

20. Aşağıdakı məzmunda 58-1-ci maddə əlavə edilsin:

**"Maddə 58-1. İctimai ekoloji ekspertiza sahəsində ictimai ekoloji ekspertizanın təşkilatçılarının vəzifələri və hüquqları**

1. İctimai ekoloji ekspertiza sahəsində ictimai ekoloji ekspertizanın təşkilatçılarının vəzifələri aşağıdakılardır:

1.1. ictimai ekoloji ekspertizanın həyata keçirilməsi zamanı bu qanunun tələblərinə riayət etmək;

1.2. ictimai ekoloji ekspertizanın nəticələri barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma), bələdiyyəyə, planlaşdırıcı orqana və sifarişçiyə məlumat vermək.

2. İctimai ekoloji ekspertiza sahəsində ictimai ekoloji ekspertizanın təşkilatçıları aşağıdakı hüquqlara malikdirlər:

2.1. ekoloji ekspertizanın obyektinə dair sənədləri tam həcmdə almaq;

2.2. ekoloji ekspertizanın keçirilməsinə dair tələbləri müəyyən edən normativ hüquqi aktlarla, habelə texniki normativ hüquqi aktlarla tanış olmaq;

2.3. ekoloji cəhətdən zərərli obyektlərin yerləşdirilməsinə, tikintisinə və istismarına dair qərarların ləğv edilməsi, onların fəaliyyətinin məhdudlaşdırılması, dayandırılması və ya dəyişdirilməsi barədə aidiyyəti qurumlara müraciət etmək.".

21. 71-ci maddə üzrə:

21.1. 2.3-cü bənddə "xüsusi icazənin" sözləri "lisenziyanın və icazənin" sözləri ilə, "xüsusi icazələrinin" sözləri "lisenziyaların və icazələrin" sözləri ilə, "onlara xitam vermək barədə vəsatət qaldırmaq" sözləri "onların dayandırılması və ya ləğvi barədə qərar qəbul etmək" sözləri ilə əvəz edilsin;

21.2. 2.7-ci bənddə "məhdudlaşdırılması və ya bu fəaliyyətə xitam verilməsi haqqında vəsatət qaldırmaq" sözləri "dayandırılması və ya qadağan edilməsi barədə qərar qəbul etmək" sözləri ilə əvəz edilsin;

21.3. üçüncü hissədə "tabeçilik və ya" sözləri "inzibati və" sözləri ilə əvəz edilsin.

22. 76-cı maddə üzrə:

22.1. 1-ci hissədə "xüsusi icazəyə" sözləri "Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq alınmış akkreditasiya attestatına" sözləri ilə əvəz edilsin;

22.2. 2-ci hissədə "xüsusi icazə" sözləri "akkreditasiya attestatı" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 iyun 2018-ci il*

# "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 12 iyun tarixli 1176-VQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 12 iyun tarixli 1176-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. üç ay müddətində:

1.1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.1.2. "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun 52-ci və 58-ci maddələrinin 2-ci hissələrinə uyğun olaraq, dövlət və ictimai ekoloji ekspertizanın həyata keçirilməsi qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

1.1.3. həmin qanunun 52-ci maddəsinin 7-ci və 9-cu hissələrində nəzərdə tutulmuş Ekspert Komissiyası haqqında əsasnaməni Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. Müəyyən edilsin ki:

3.1. "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun 1-ci maddəsinin 1-ci hissəsinin on üçüncü abzasında, 40-cı maddəsinin 2-ci hissəsində, 52-ci maddəsinin 1-ci, 2-ci, 5-ci, 7-ci, 8-ci (hər iki halda), 9-cu, 10-cu (hər iki halda) və 12-ci hissələrində, 54-cü maddəsinin 1-ci hissəsinin səkkizinci bəndində, 55-ci maddəsinin 1.2-ci bəndində, 56-cı maddəsinin 1-ci hissəsində, 57-ci maddəsinin 1-ci və 3-cü hissələrində, 58-ci maddəsinin 2-ci, 4-cü və 7-ci hissələrində, 58-1-ci maddəsinin 1.2-ci bəndində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

3.2. həmin qanunun 52-ci maddəsinin 2-ci və 9-cu hissələrində, 54-cü maddəsinin 1-ci hissəsinin səkkizinci bəndində, 56-cı maddəsinin 1-ci hissəsində, 58-ci maddəsinin 2-ci hissəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

3.3. həmin qanunun 1-ci maddəsinin 1-ci hissəsinin on üçüncü abzasında, 40-cı maddəsinin 2-ci hissəsində, 52-ci maddəsinin 1-ci, 7-ci, 8-ci (birinci halda), 10-cu (hər iki halda) və 12-ci hissələrində, 55-ci maddəsinin 1.2-ci bəndində, 57-ci maddəsinin 1-ci və 3-cü hissələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi nəzərdə tutulur;

3.4. həmin qanunun 58-ci maddəsinin 4-cü və 7-ci hissələrində, 58-1-ci maddəsinin 1.2-ci bəndində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və yerli icra hakimiyyəti orqanları nəzərdə tutulur;

3.5. həmin qanunun 52-ci maddəsinin 5-ci hissəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, müalicə-sağlamlaşdırma yerləri və kurortlara münasibətdə isə həmçinin Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi nəzərdə tutulur;

3.6. həmin qanunun 52-ci maddəsinin 8-ci (ikinci halda) hissəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi nəzərdə tutulur.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 iyul 2018-ci il*

# Milli Məclisin nümayəndə heyətinin rəhbəri ATƏT PA-nın sessiyasında çıxış edib

Berlində Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının (ATƏT PA) 27-ci illik sessiyası çərçivəsində ATƏT PA-nın prezidenti Georgi Tseretelinin məruzəsi ətrafında müzakirələr aparılıb. Azərbaycanın ATƏT PA-dakı nümayəndə heyətinin rəhbəri, Milli Məclis Sədrinin müavini Bahar Muradova müzakirələrdə çıxış edib.




ATƏT PA-nın və şəxsən onun sədrinin fəaliyyəti barədə müsbət fikirlər söyləyən B.Muradova Azərbaycanın ATƏT PA ilə dialoqa böyük əhəmiyyət verdiyini, ölkəmizin onun işində fəal iştirak etməyə çalışdığını diqqətə çatdırıb.

Azərbaycan nümayəndəsi dövlətlərarası regional münaqişələrin faciəli nəticələri və suveren dövlətlərin ərazilərinin işğalı ilə bağlı məsələlərin təşkilatın diqqət mərkəzində olmasının əhəmiyyətini vurğulayaraq bildirib ki, ATƏT PA-nın üzvləri belə münaqişələr nəticəsində insan haqlarının pozulmasına etirazını birincilər sırasında bildirməlidirlər.

Bahar Muradova həmkarlarını Avropada təhlükəsizlik və əməkdaşlıq konsepsiyasına uyğun olaraq daha qəti addımlar atmağa çağırıb.

Azərbaycan nümayəndəsinin nitqində ATƏT-in və onun parlament forumunun qərarlarının icra mexanizmlərinin daha da təkmilləşdirilməsi istəyi ifadə olunub.

B.Muradova çıxışının sonunda qeyd edib ki, Azərbaycan multikulturalizm sahəsində müsbət təcrübəsini bölüşməyə hazırdır.

ATƏT PA-nın prezidenti Georgi Tsereteli başçılıq etdiyi təşkilatın fəaliyyətinin azərbaycanlı həmkarlar tərəfindən yüksək qiymətləndirilməsinə görə Azərbaycan nümayəndə heyətinin başçısına təşəkkür edib və belə bir fikirlə razılaşıb ki, ATƏT-in qərarlarının həyata keçirilməsi mexanizmləri həqiqətən təkmilləşdirilməlidir.

***AZƏRTAC***

# ATƏT PA-nın sessiyasında Azərbaycanda keçirilmiş prezident seçkiləri müzakirə olunub

ATƏT Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin rəhbəri, Milli Məclisin Sədr müavini Bahar Muradova təşkilatın Daimi Komitəsinin iclasındakı çıxışında ATƏT-in müşahidə missiyasının xüsusi əlaqələndiricisi Nilza de Senanın hesabatına cavab olaraq, bəzi strukturların Azərbaycanda keçirilmiş prezident seçkilərinə münasibətdə qərəzli və subyektiv mövqeyinə diqqət çəkib. O, xüsusi əlaqələndiricinin tənqidi fikirlərini şişirdilmiş adlandırıb və qeyd edib ki, seçkilər şəffaflıq şəraitində keçirilib, vətəndaşların bütün konstitusion hüquqları tam olaraq təmin edilib, namizədlərə isə qanunvericilik çərçivəsində hər cür şərait yaradılıb.

Bahar Muradova deyib: "Təbii ki, heç bir ölkədə seçkilər hər hansı kiçik pozuntular olmadan keçirilmir. Azərbaycan da istisna deyil, lakin qeydə alınmış kiçik pozuntuların heç biri səsvermənin yekun nəticəsinə təsir edə bilməz".

Nümayəndə heyətinin rəhbəri həmkarlarını əmin edib ki, Azərbaycanda konstruktiv dialoqa hazırdırlar və obyektiv tənqidə hər zaman müsbət yanaşırlar. Lakin selektiv və qərəzli qiymət verilməsi tərəqqiyə kömək etmir.

ATƏT PA-nın prezidenti Georgi Tsereteli, öz növbəsində, konstruktiv mövqeyinə görə Azərbaycan nümayəndə heyətinə təşəkkürünü bildirib və gələcəkdə də Azərbaycanda seçki prosesinin təkmilləşdirilməsini arzulayıb.

***AZƏRTAC***

# Daxili işlər naziri Qubada vətəndaşları qəbul edib

Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına əsasən, daxili işlər naziri general-polkovnik Ramil Usubov mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, iyulun 7-də Quba şəhərində vətəndaşları qəbul edib.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Quba Rayon Polis Şöbəsində Quba, Qusar, Xaçmaz, Şabran, Siyəzən və Xızı rayonlarından olan 23 vətəndaşla görüşən nazir onların polis orqanlarının fəaliyyəti ilə bağlı müraciətlərini dinləyib, problemlərinin qanunvericiliyə uyğun şəkildə həlli üçün aidiyyəti baş idarə, idarə və xidmət, həmçinin ərazi polis orqanlarının rəislərinə konkret tapşırıqlar verib. Daxili işlər orqanlarının fəaliyyəti ilə bağlı olan məsələlərin əksəriyyəti yerindəcə həllini tapıb.

Qəbulda iştirak edən vətəndaşlar bölgələrdə mütəmadi keçirilən belə görüşlərin təşkilinə, dövlət orqanlarının rəhbərləri tərəfindən müraciətlərinə diqqətlə və həssas yanaşılmasına görə Prezident İlham Əliyevə minnətdarlıq edib, dövlət başçısına Azərbaycan Respublikasının tərəqqisinə, beynəlxalq imicinin daha da yüksəldilməsinə yönəlmiş siyasətini bundan sonra da dəstəkləyəcəklərini bildiriblər.

# Müraciətlərin icrası nəzarətə götürüldü

Dövlət srukturlarını təmsil edən rəhbər şəxslərin keçirdikləri səyyar görüşlər yerlərdə müsbət qarşılanır. Bunu İsmayıllı rayonunun qəsəbə və kəndlərində rayon icra hakimiyyəti başçısının sakinlərlə müntəzəm görüşləri də təsdiqləyir.

Növbəti belə görüş Mican kəndində keçirilmişdir. Görüşdə təsərrüfat və digər xidmət sahələrinin, şəhər bələdiyyəsinin, ictimaiyyətin nümayəndələri və iş adamları iştirak edirdilər.

Görüşün əvvəlində RİH-in başçısı Mirdaməd Sadıqov rayonda aparılan abadlıq-quruculuq işləri, həyata keçirilən sosialyönümlü layihələr barədə məlumat verdi, dövlət dəstəyi sayəsində rayonda yaradılan yeni iş yerləri barədə ətraflı söz açdı. Sonra Mirdaməd Sadıqov sakinləri narahat edən problemlərlə bağlı verilən sualları cavablandırdı.

Sakinlər ərazidə aparılan davamlı abadlıq-quruculuq işlərindən razılıq edərək ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirib onları narahat edən nöqsan və çatışmazlıqların aradan qaldırılmasını xahiş etdilər. Müraciətlərdə qəsəbənin su təminatının daha da yaxşılaşdırılması, ehtiyac olan küçələrin təmiri, məişət tullantılarının daşınması, mənzil şəraitinin yaxşılaşdırılması üçün torpaq təminatına kömək göstərilməsi və digər suallar səslənib. Bundan başqa, qaçqın və məcburu köçkünlərin məskunlaşdıqları "Qəsəbə 45" adlanan əraziyə gələn marşrut avtobusunun məsafəsinin uzadılaraq Mican kəndini də əhatə etməsi təklif olundu.

Sakinlər tərəfindən qaldırılan məsələlərin həlli ilə əlaqədar aidiyyəti qurumların rəhbərlərinə konkret tapşırıqlar verildi və müraciətlərin icrası nəzarətə götürüldü.

***Əli SƏLİMOV, "Azərbaycan"***

# "Uman yerdən küsərlər"

*Əvvəli 1-ci səh.*

Bununla belə, dövlət başçısını ən çox əhalinin əziyyət çəkməsi rahatsız etmişdir: "Siz, sadəcə olaraq, utanmalısınız, xalq qarşısında, ölkə qarşısında. Bu isti havada insanlara bu qədər əziyyət vermisiniz. Metroda qalanlar, qocalar, uşaqlar, qadınlar, xəstələr, liftlərdə qalanlar..." "Azərenerji" ASC-nin prezidentinə xitabən deyilən bu sözlər danlaqdan, tənbehdən çox məsuliyyətsizliyə verilən düzgün, eyni zamanda sərt qiymət idi.

Həmişə müzakirə olunan məsələlərdən asılı olmayaraq bu cür tədbirlərdə təmkini ilə seçilən Prezident İlham Əliyevin hadisənin günahkarlarına münasibətdə belə sərt və sərt olduğu qədər də obyektiv münasibət nümayiş etdirməsi səbəbsiz deyildi. "Mən bu sahəyə bu qədər investisiya ayırmışam. Dövlət İnvestisiya Proqramında hər il bu məqsədlə böyük vəsait ayrılır. İndi yeni elektrik stansiyaları tikilir... Son 15 il ərzində 30 stansiya tikilmişdir. Elə bir sistem qurulmalı idi ki, bir qəzaya görə ölkənin enerji sistemi çökməsin. Nə üçün Bakıda, Sumqayıtda, bölgələrdə istifadəyə verilmiş elektrik stansiyaları qəza baş verəndən sonra fəaliyyətini dayandırdı? Siz bunun səbəbləri haqqında danışmalısınız, bunun izahatını verməlisiniz" deyən Prezident "Azərenerji"nin rəhbərliyinə bir daha bəyan etmiş oldu ki, artıq bəraətə bəhanə yoxdur: "...Mənə indi verilən məlumat ki, havalar isti keçir, istehlak artır, bu, məni qane edə bilməz, qətiyyən".

Məlum olduğu kimi, "Azərenerji" ilk qəzadan sonra ictimaiyyətə verdiyi açıqlamada hadisənin səbəbini havaların normadan artıq isti keçməsi üzündən istehlakın artması və buna görə də avadanlıqların həddən çox yüklənməsi ilə izah etmişdi. Düzü, buna sıravi vətəndaşlar arasında inananlar az olmadı - birincisi, hamının energetika sahəsi üzrə mütəxəssis olmaması, ikincisi də yanğının operativ söndürülməsi və enerjinin qısa vaxtdan sonra verilişinin bərpa edilməsi səbəbindən. Amma axşamkı qəzadan sonra problemin daha mürəkkəb, daha dərin olması üzə çıxdı. Prezidentin yanında keçirilən müşavirə isə həmin mürəkkəbliyin detallarını ortaya qoydu və məlum oldu ki, qəzanın səbəbi heç də havaların istiliyi yox, bu sahəyə məsul işçilərin öz vəzifələrinə soyuq münasibətidir. Bu mənada sözügedən müşavirədə dövlət başçısının ölkənin əlaqədar mərkəzi icra orqanlarının rəhbərlərinə qarşı ciddi tələbkarlıq və sərt qətiyyət nümayiş etdirməsini başa düşmək çətin deyil.

Ümumiyyətlə, olmazmı müşavirəsiz-filansız hər qurum rəhbəri öz üzərinə düşən vəzifəni vicdanla yerinə yetirsin?! Yəqin, mümkündür, sadəcə, bunun üçün yetər ki, məsuliyyətli olasan.

***Raqif MƏMMƏDOV, "Azərbaycan"***

# "Azərbaycan" İES-in yarımstansiyasında yanğın zamanı zədələnmiş avadanlıqların bərpası aparılır

## Hazırda enerji sisteminin dayanıqlı işi və respublikanın etibarlı elektrik enerjisi ilə təchizatı tam təmin edilir

"Azərbaycan" İstilik Elektrik Stansiyasının (İES) yarımstansiyasında yanğın zamanı zədələnmiş avadanlıqların, sıradan çıxmış idarəetmə və rabitə kabellərinin bərpası üzrə müvafiq texniki tədbirlər davam etdirilir.

"Azərenerji" ASC-dən AZƏRTAC-a bildirilib ki, iyulun 3-də saat 00:20 radələrində "Azərbaycan" İstilik Elektrik Stansiyasının 330 kilovoltluq yarımstansiyasında baş vermiş qəzanın genişlənərək sistem qəzasına çevrilməsi və qəzanın fəsadlarının tez bir zamanda aradan qaldırılması barədə səhmdar cəmiyyətin Mərkəzi Dispetçer Xidmətinin son məlumatına əsasən: "Baş vermiş 1 fazalı qısa qapanma 3 fazalı qısa qapanmaya çevrilmiş və ani olaraq "Azərbaycan" İES-də işdə olan 7 enerji bloku (1500 meqavat güc) rele mühafizəsindən şəbəkədən açılıb. Böyük güc çatışmazlığı səbəbindən (tələbatın 50 faizi həcmində) qəzanın 1-ci saniyəsində əks-qəza avtomatikasının təsirindən Azərbaycan enerji sistemi Rusiya enerji sistemindən ayrılıb.

Qəzadan əvvəlki rejimdə "Azərbaycan" İES-də istehsal olunan 1500 meqavat gücün 1000 meqavatı Bakı və Abşeronun tələbatının ödənilməsi məqsədilə ötürülürdü. Qəzanın ilk saniyələrində "Mingəçevir-Abşeron" yük ötürülməsi dəhlizinə daxil olan sistemtəşkiledici 330 kilovoltluq 1-ci Abşeron elektrik verilişi xətti "Azərbaycan" İES-də cərəyan transformatorunun dağılması səbəbindən rele mühafizəsindən və 500 kilovoltluq 2-ci Abşeron elektrik verilişi xətti isə asinxron gedişin ləğvi avtomatikasından açılıb, sistem əks-qəza avtomatikasının işləməsinə baxmayaraq, böyük aktiv və reaktiv güc çatışmazlığı və qəzanın ani olaraq baş verməsi, qəzanın selvari xarakter almasına və enerji sisteminin tam dayanmasına səbəb olub. Təxirəsalınmaz operativ tədbirlər nəticəsində enerji sisteminin bərpası təmin edilib və mövcud generasiya güclərindən istifadə edilərək, ilk növbədə həyati vacib əhəmiyyətli obyektlərin, sonradan isə generasiya gücləri bərpa edildikcə digər istehlakçıların elektrik enerjisi ilə təchizatı bərpa olunub".

Dövlət başçısı baş verən hadisəni birbaşa öz nəzarətinə götürüb.

Ölkə enerji sisteminin yaranmış vəziyyətdən tez bir zamanda çıxarılması və qəzanın fəsadlarının aradan qaldırılması məqsədilə dərhal bütün resurslar səfərbər edilib və enerji sistemi fövqəladə iş rejiminə keçib.

Qısa vaxt ərzində verilmiş çevik reaksiya nəticəsində "Azərenerji" ASC tərəfindən qidalandırılan istehlakçılar 100 faiz elektrik enerjisi ilə təchiz edilib.

Hazırda enerji sisteminin dayanıqlı işi və respublikanın etibarlı elektrik enerjisi ilə təchizatı tam təmin edilir. Gürcüstan enerji sistemindən elektrik enerjisinin idxalı dayandırılıb və Rusiya enerji sistemi ilə paralel iş rejimində razılaşdırılmış qrafik əsasında elektrik enerjisinin ötürülməsi həyata keçirilir.

"Azərbaycan" İES-in 330 kilovoltluq yarımstansiyasında yanğın zamanı zədələnmiş avadanlıqların və sıradan çıxmış idarəetmə və rabitə kabellərinin bərpası üzrə müvafiq texniki tədbirlər davam etdirilir.

# Yerevanla Xankəndi arasında ziddiyyətlər artır

## *Artıq Qarabağ erməniləri özlərini qurban verdiklərini anlayırlar*

Ölkədə demokratiyanın meyarı mətbuatın toxunduğu mövzuların çələngi ilə təyin olunur. Amma erməni KİV-i vərəqləyəndə görürsən ki, oxucuya təqdim edilən bütün çələnglər qara lentlə bəzədilərək kiminsə məzarına qoyulmaq üçün hazırlanıb. Qısası, ölkə də, KİV də başlarını itiriblər, ya da Mirzə Cəlil demişkən, binədən başları yerində olmayıb. Yəni onlar, birincisi, nə baş verdiyini anlamırlar, ikincisi, nə dediklərinin və yazdıqlarının fərqindədirlər. Bakıda keçirilən hərbi paradın arxasınca Azərbaycan Ordusunun genişmiqyaslı təlimləri və Cocuq Mərcanlıda Rusiya ilə birlikdə təşkil edilən "Azərbaycan Cənubi Qafqazda Rusiyanın yeganə müttəfiqidir" beynəlxalq konfransı erməni siyasi elitasının arsız yanağına aramsız çırpılan yağlı şapalaqları xatırladır. Bu gözlənilməz jestlərdən təkəbbürünü itirən erməni təbliğat maşını çaşaraq həqiqətləri dilə gətirir.

Bir qədər geri qayıdaraq ondan başlayaq ki, ermənilərin birinci xəbər saytı (http://ru.1in.am/1229137.html) Robert Koçaryanı əksinqilabın qanlı simvolu elan etdi. Səbəb də odur ki, eks-prezident "Jamanak" qəzetinə qarşı 2 milyon dramlıq məhkəmə iddiası qaldırmağa cürət edib! Belə çıxır ki, "məxməri erməni inqilabı"ndan sonra heç bir oliqarx onları ifşa edən qəzetləri məhkəməyə verməyi ağıllarına belə gətirməli deyilmiş: "Robert Koçaryan "Birinci informasiya"nı məhkəməyə verməklə kriminal oliqarx seqmentinin tör-töküntülərini başa salır ki, məhz onun özü müqavimət mərkəzinin rəhbəri kimi fəaliyyət göstərir, söz azadlığına qarşı müharibə elan edir".

Misilsiz sədaqətlə Sarkisyan rejimini vəsf edən erməni mətbuatının təmsilçiləri indi boğazlarını yırtaraq "məxməri inqilab"dan sızan qrantların sadiq qulları olduqlarını təsdiq etmək üçün dəridən-qabıqdan çıxırlar. Şəkk gətirənləri "məxməri inqilab"a xəyanətdə suçlayırlar.

Bu gün Ermənistan jurnalistləri demokratik dəyərlərə şıllaq ataraq bolşevik diktaturasından daha sərt və daha tərbiyəsiz ruhda onlara şübhə edənlərin ətini didişdirir. Bunun da kökündə o dayanır ki, Ermənistanda gedən siyasi proseslər demokratik islahatlardan daha çox Rusiyanın dayaqlarının vurulması ilə bağlıdır.

Ermənistanda hansı demokratın gönünü yun çırpan çubuqla yüngülvarı çırpsan, altından dəbərib hikkə ilə bir faşist qalxır. Mətbuat isə halay vurub Paşinyana züy tutur ki, hakimiyyət Qarabağ klanından demokratların əlinə keçir. İnanan daşa dönsün! Hakimiyyət bir klandan hələ əsl mahiyyətini büruzə verməyən Paşinyanın dəstəsinin əlinə keçir. Faktiki olaraq Rusiyaya bağlı siyasi liderlər sürətlə hakimiyyətdən uzaqlaşdırılır. Yəni həbslərin mahiyyəti oliqarx korrupsionerlərin təmizlənməsi yox, Rusiyaya bağlı daxili qüvvələrin təcili neytrallaşdırılması və hakimiyyətdən uzaqlaşdırılmasından ibarətdir. Bu halda Ermənistan hərb maşınının işğalçılıq ambisiyaları bir qədər səngimək əvəzinə qızdırmalı xəstənin qıcolmaları səviyyəsində çırpıntılarla artır. Beysbol kepkasında "Yeni Ermənistan"ın siyasi səhnəsinə çıxan Paşinyan demokratik təfəkkürlü lider olsaydı, erməni faşisti Njdeyə ucaldılan abidəni sökərdi, işğal altındakı əraziləri təcili və qeyd-şərtsiz boşaldardı və Xankəndiyə müharibəyə sədaqət andı içməyə gəlməz, oğlunu da silahlandırıb dalınca Dağlıq Qarabağa dartmaz, DİN-in qüvvələrini Ermənistandan Qarabağa atmağa qərar verməzdi. Sonuncu addım Qarabağın müdafiəsinin gücləndirilməsi kimi təqdim edilsə də, mahiyyət etibarilə, çox güman ki, İrəvandan narazı düşən Qarabağ ermənilərini ram etməyə hesablanıb.

Erməni saytlarını izləyəndə ən aydın görünəni odur ki, faşist ideologiyası cəmiyyətin bütün təbəqələrinin iliyinədək işləyib. Hakimiyyətə demokratlar da, oliqarxlar da gəlsə, sülhlə savaş arasındakı yaşam tərzi dəyişmir. Başlıca meyar əbədi düşmənlə əbədi müharibə aparmaqdır. Ona görə də məxməri demokratlar İrəvanda faşist Njdenin heykəlini yerindən dəbərtməyəcək və çox güman ki, o, uzun illər erməni xalqının "xilaskarı" kimi təqdim ediləcək.

Erməni jurnalistləri bir tərəfdən Sarkisyanla birlikdə bütün generalları günahkar və cinayətkar sayır, digər tərəfdən də (https://epress.am/ru/2018/06-/23/) başlığa çıxarılır ki, "Tramp, Putin, Sarkisyan və hətta general Qriqoryan nədə günahkar deyil". Ermənistanda "məxməri inqilab"ın baş verdiyi etiraf edilir: "Generalın həbsi ona görə yaxşı idi ki, o, həqiqət olmaq üçün həddən ziyadə yaxşı nümunə idi. Adi bir əhvalatdır ki, döyüş generalı və Qarabağ müharibəsinin qəhrəmanı Eçmiədzinin kriminal hökmdarına çevrilir. Pul çay kimi axır, şəhər vahimə içindədir və əsir götürülən azərbaycanlı qul, generalın raport verdiyi kimi, xristiansayağı xaç çəkirmiş!" Yazının ruhunun fərqindəsinizmi? Hər şey olduqca adidir. Bu yazıda demokratik dəyərlərin ruhuna uyğun heç olmasa bircə ifadə tapa bilərsinizmi? Onlar üçün azərbaycanlı əsirin uzun illər qul kimi zəncirdə saxlanılması, xristiansayağı xaç çəkməyə vadar edilməsi müzakirə mövzusu deyil.

"Epress.am" kirimişcə reallıqlardan qopub ətalətdən doğan mütiliklə şərh edir: "Belə generallar isə az deyil. Bəziləri isə hesab edirlər ki, digər babat generallardan heç qalmayıb da. Qalib Qriqoryanı bu süjet xəttindən asanlıqla aralayan başqa mövzular var. Qriqoryan - kriminal avtoritet, Qriqoryan - hakim partiyadan olan deputat, Qriqoryan - Sarkisyan rejiminin rəmzi".

Sayt sonra əlavə edir ki, İrəvanın "məxməri inqilab"ının arxasınca Xankəndidə boş bir qığılcımdan avtomobillərin yuyulduğu sexdə dava qopur və azlıq təşkil edən tərəf uduzmaqdan canını qurtarmaq üçün xüsusi təyinatlı dostlarını çağırır. 200-300 adam isə Dağlıq Qarabağ üçün qiyamçıya çevrilir. Xüsusi təyinatlıların köpünü almaq üçün qondarma rejimin DTX-nin və DİN-in rəhbərləri vəzifələrindən azad edilir. Bunun ardınca İrəvanda general Qriqoryandan imtina etdilərsə, Qarabağda, fərqli olaraq, polemikaya start verildi. Bu, formaca hərbi adamların xidmətləri və dövlətdə istisna rolu ilə bağlı idi".

Saytın özü də nə baş verirsə anlamır, ya da etiraf etməyə çəkinir. Amma eyni hadisəyə İrəvanla Xankəndinin qarşıdurmaya çevrilən fərqli yanaşmalar sərgiləməsi çaşqınlıq yaradır. Bu nə deməkdir: Dağlıq Qarabağ İrəvana itaət etməkdən bezib, cana gəlibmi? Amma ağlı üstündə olan hər bir ermənini narahat edən daha vacib sual var.

Bu suala keçməzdən öncə bir daha erməni kütləvi informasiya vasitələrinin nədən yazdığını xatırlayaq: döyüş bölgəsində əsgərlər acından ölür, döyülür, döyüş hazırlığı keçmədən ölümə göndərilir, erməni generalları yalançı Qarabağ vətənpərvərliyi altında Dağlıq Qarabağ sakinlərinə divan tutur, qarət və talanlarla məşğuldurlar. İndi sualımızı verək: bu idimi sizin Qarabağ ermənilərinə verdiyiniz azadlıq? Onlar "Miatsum!" qışqıraraq körüklənəndə sizdən bunumu istəyirdilər? 30 illik münaqişə onu göstərir ki, erməni xalqının ən böyük düşməni Azərbaycan yox, ümumdünya erməniçiliyi və söykəndikləri hakim faşist ideologiyasıdır. 30 illik "mübarizə" onunla nəticələndi ki, 1,5 milyon erməni xaricə qaçdı və yerdə qalanları da iki qütbə parçalanaraq bir-birinə düşmən kəsildi! Bu azmış kimi, indi də İrəvanda Qərbin diktəsi və rəhbərliyi ilə Rusiyaya bağlı ermənilərə divan tutulur. Siz bunamı "məxməri inqilab" deyirsiniz?

Dağlıq Qarabağ Azərbaycanın tərkibində olanda səngərlər yox idi, artilleriya mərmiləri partlamırdı. Heç kim ölmürdü - nə səngərlərdə, nə də acından. Və heç kim də kiminləsə düşmən deyildi. Siz necə birləşdiniz ki, indi öz içinizdə bir-birinizə qənim kəsildiniz? Sovet dönəmində bütün ermənilər yağ-bal içində üzürdülər. Azərbaycan Qarabağ ermənilərinə heç vaxt heç nəyini əsirgəməmişdi.

Artıq onilliklərdir ki, Xankəndidən İrəvana yola salınan tabutlarda balalarınızın cəsədləri qayıdır. Belə çıxır ki, nə Ermənistan hökuməti, nə də Qafqazı qan çanağına döndərən erməni diasporu hələ də bu münaqişəni niyə yaratdıqlarını və nə istədiklərini dərk etmirlər. Faşizm virusi ilə yoluxan erməni xalqı da anlayır ki, güvəndiyi Qərbdən və erməni diasporundan hədiyyə aldıqları müharibə çələngini gəzdirməklə heç nə əldə edə bilmədilər. Məhz buna görə də İrəvanla Xankəndi arasında ziddiyyətlər artır. Artıq Qarabağ erməniləri bu müharibədə özlərinin qurban verildiyini, Ermənistanda isə onların faciələrinin sonsuz zəncirindən faydalanıb sərvət yığaraq boy verən erməni oliqarxlarını yaxşı görürlər.

Qarabağ və ümumiyyətlə, Ermənistan erməniləri hansı azadlıqları qazandı, çiyrənmədən vəsf etdikləri "qələbə" onlara hansı üstünlükləri verdi?

Bütün bu suallara bugünkü erməni mətbuatında cavab tapmayacaqsınız. Halbuki cavab axtarmağa cəhdlər edilir. Nəticə ondan ibarətdir ki, erməni mətbuatı Qriqoryan kimi azğın generalların timsalında Qarabağ ideyasının süquta uğramasını bilmədən təsdiq edirlər: "Arzu olunan səviyyədəki müstəqillik inkişafın ümidsiz alçaq tavanına, çıxış yolu olmayan ölü əyalətçiliyə dirəndi. İnkar edənlərin təkəbbürü yalnız adətkarı olduqları dairəvi müdafiənin içində qərar tuta bilərdi. Və çəkinmədən deyilərdi ki, kim dost deyilsə, düşməndir. Çünki bütün baş verənlərin nəticəsi belədir ki, tükənib qeyb olan dostları saymaq da mümkün deyil". Erməni mətbuatı, çətin başa düşülsə də, pərdələnmiş tərzdə etiraf edir ki, İrəvan Dağlıq Qarabağda dayaqlarını itirib. Necə oldu ki, erməni terror dəstələrinin və Ermənistan hərbi maşınının supergüclərin dəstəyi ilə "qazandığı qələbə" bu gün məğlubiyyətin acı tamını verir? İrəvan hansı səbəbdən Dağlıq Qarabağda güvəndiyi dayaqları itirdiyini etiraf edir: Xankəndidə "müstəqillik elə intellektual quyuya çevrildi ki, istənilən polemikanı içinə çəkib qarşıdurmayadək şişirdir. Burada heç kim heç nəyi qadağa etmir, mübahisə mövzusu da yoxdur".

Vəssalam. Erməni mətbuatının gəldiyi son qənaət belədir. Erməni xalqını iki əsrin qovuşmasında müharibələrə həvəsləndirən faşist ideologiyası süquta uğramışdır. Yəni "Artsaxa azadlıq", "Miatsum" şüarları altında 1990-cı illərdən bugünədək səngiməyən müharibə Qarabağ ermənilərini qula çevirdi. Azadlıq isə yalnız Qarabağı çapıb talamaq üçün erməni generallarının əlində bir şüar idi: "Ona görə belə alındı ki, müstəqillik illərində heç olmasa təxmini inkişaf konsepsiyasının strategiyası yaranmadı. O saat ortaya iki şübhə çıxır. Birincisi, əgər bu konsepsiya yaranmadısa, deməli, yaranmayacaq da. İkincisi, bütün bunlarda nə Tramp, nə Putun, nə Sarkisyan, general Manvel Qriqoryan günahkardır. Ona görə ki, başqa cür alına da bilməzdi. Suverenliyi əldə edənlərin iddiasında olduğu suverenlik artıq olmur. Başqasını isə onlara təklif edən yoxdur. Buna görə də hərbi diktatura reallaşmayan layihənin mövcudluq formatı kimi qalacaq". Baxın, erməni təbliğat maşını məğlubiyyətlərini etiraf etsə də, yenə çıxış yolunu faşizmin əbədiləşməsində görür. Kələfin ucunu itirən erməni ideoloqları sayıqlamalarını israrla yeni çıxış yolu kimi təlqin edirlər. Onlar artıq yıxıldıqları uçurumların nə dərəcədə ümidsiz olduğunu dərk edirlər. İrəli getmək qeyri-mümkündür, geriyə yollar bağlıdır.

Barış nə qədər qəbuledilməz olsa da, internet resurslarında ağlasığmaz təkliflərlə rastlaşmaq mümkündür. Bu yaxınlarda feysbukda bir neçə erməni qadının müraciəti yayıldı. Onlar bir ağızdan erməni kişilərini ucdantutma kişi olmamaqda suçladılar: "Erməni kişiləri kişi deyil. Xaçikdən kisi çıxmaz! Bizə isə kişi lazımdır. Qadınların biri qışqırır ki, 19 yaşında övladı hələ də bakirədir!" O biri isə deyir ki, "biz türk, Azərbaycan kişiləri ilə olmaq istəyirik! Qoy hərəmizin bir türk kişisi olsun!" Əslində, bu feysbuk rolikini bütün erməni qadınlarının mövqeyi kimi təqdim etmək ayıb olardı. İnanmaq da olmur ki, bütün ermənistanlı qadınlar yalnız bizim kişilərə tamah salıblar. Sadəcə, fakt özlüyündə maraqlıdır və Karl Marksın bir sitatı yada düşür: "Ermənilər yeganə xalqdır ki, siyasi planlarını həyata keçirmək üçün qadınlarını başqalarının ayaqları altına həsir kimi atıblar". Bu qadınların da bizim kişilərə eşq oxuması, görünür, köhnə erməni təbliğat maşınının yeni qiyafədə təqdimatıdır. Amma artıq az-çox siyasi dərrakəsi olanlar anlayırlar ki, Qarabağ ermənilərinin çıxış yolu Azərbaycana birləşməkdədir. Birləşməsələr, "qazandıqları qələbə" onları daha dərin uçurumlara yuvarlayacaq.

***Bahadur İMANQULİYEV, "Azərbaycan"***




# XXI Dünya çempionatı

## 28 İLLİK HƏSRƏTƏ SON



**İsveç - İngiltərə - 0:2**
**Qollar:** Harri Maquayr, 30; Dele Alli, 59
*Samara. "Kosmos Arena"*

Dünən dünya çempionatında günün ilk yarımfinalçısı İsveç-İngiltərə matçından sonra məlum oldu. Xatırladaq ki, bu komandaların bundan əvvəlki mundiallarda iki görüşü heç-heçə başa çatmışdı (DÇ-2002-də 1:1, DÇ-2006-da 2:2).

O da maraqlıdır ki, xokkey yarışlarında 11 dəfə dünya çempionu olan isveçlilər futbolda ən yaxşı nəticəni öz ölkələrində DÇ-1958-də göstərərək 2-ci yeri tutublar. İndi bu nailiyyətə çatmaq üçün isveçlilər bu dəfə İngiltərə səddini aşmalı idi. Amma bu olmadı.

İsveç millisi hazırkı mundialda heyətə dəvət almayan İbrahimoviçlə Avro-2004-də 1/4 finala yüksəlmişdi. Odur ki, bu dəfə onun oynamaması çoxlarını təəccübləndirmişdi. Seçmə mərhələnin qrupunda Hollandiyanı qabaqlayan, pley-offunda İtaliyadan güclü olan, final turnirində qrupda Almaniyanı geridə qoyan, nəhayət, 1994-cü ildən sonra ilk dəfə mundialda 1/4 finala yüksələn İsveç futbolçuları növbəti sensasiyaya imza atmaq istəyirdilər.

İngiltərə millisi də 2006-cı ildən sonra yenidən mundialda 1/4 finala çıxmaqla azarkeşlərini sevindirib. Bundan başqa, ingilislər dünya çempionatlarında ilk dəfə penaltilər seriyasında qalib gəlməklə tilsimi qıra biliblər (DÇ-1990, DÇ-1998 və DÇ-2006-da məhz penaltilərdə uduzaraq mübarizəni dayandırmışdılar). Onlar oyun zamanı da penaltidən 3 qol vurmaqla hazırkı yarışda öndədirlər.

Bu qarşılaşmayadək komandasının 9 qolundan 6-nı vuran Harri Keyn də Qari Linekerdən sonra dünya çempionatının bombardiri olan ikinci ingilis kimi tarixə düşməyə çox yaxındır.

İsveç-ingiltərə komandalarının görüşündə mübarizənin əsasən meydançanın mərkəzində gedəcəyi düşünülürdü. Lakin gözlənildiyinin əksinə olaraq hollandiyalı referi Byörn Kuypersin idarə etdiyi matça ingilislər daha sürətli başladılar. Hücumları cinahlardan quran İngiltərə yığması qol vurmaq üçün bir neçə dəfə fürsətdən yararlana bilmədi. Lakin ilk hissənin sonuna yaxın ingilislər istəklərinə çatdılar. Eşli Yanqın künc zərbəsindən hava ötürməsini başla dəqiq tamamlayan Hari Maquayer adını tabloya yazdırdı - 1:0.

Fasilədən sonra təzyiqi daha da artıran "dumanlı albion" təmsilçiləri matçın 59-cu dəqiqəsində rəqibi ikinci dəfə oyuna mərkəzdən başlamağa məcbur etdilər. Cesi Linqardın hava ötürməsini Deli Alli dəqiq baş zərbəsi ilə tamamladı - 2:0.

Bundan sonra tərəflərin qol vurmaq üçün kifayət qədər imkanları olsa da, başqa qol olmadı.

Beləliklə, ingilislər 1990-cı ildəki dünya çempionatından sonra adlarını yenidən yarımfinala yazdırıblar.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

## ƏZMİN ZƏFƏRİ



**Rusiya - Xorvatiya - 2:2 (Penaltilər seriyası - 3:4)**
**Qollar:** Denis Çerışev, 31; Mario Fernandes, 115 - Andrey Kramariç, 39; Domaqoy Vida, 101
*Soçi. "Fişt" stadionu*

Rusiya-Xorvatiya matçı ilə dünya çempionatında sonuncu yarımfinalçının adına aydınlıq gəldi. Rusiya komandası xorvat səddini adlamaqla 1966-cı il mundialında yarımfinala çıxan SSRİ yığmasının tarixi nailiyyətini təkrarlaya bilərdi. Azərbaycan əsilli cinah oyunçusu Aleksandr Səmədov Rusiya komandasının əsas xüsusiyyətinin xarakter, yəni iradə olduğunu bildirmişdi. O, həmçinin səbir və göstərdikləri əzmkarlıq sayəsində ispanları mübarizədən kənarlaşdırdıqlarını demişdi. Bu səbr yenə ruslara tarixi bir nailiyyət yaşada bilərdi.

Xatırladaq ki, Rusiya və Xorvatiya komandalarının əvvəlki görüşlərində - Avro-2008-in seçmə mərhələsi çərçivəsində keçirilən hər iki oyun qolsuz bərabərliklə başa çatmışdı. Tərəflər bu dəfə də heç-heçə ənənəsini poza bilmədilər.

Braziliyalı referi Sandro Rikkinin start fitindən sonra xorvatlar oyuna daha sürətli başladılar. Ruslar isə müdafiəyə çəkilərək əks hücum taktikası seçdilər. Bu taktika Rusiya millisi üçün 1/8 finalda ispanlarla görüşdə uğurlu alınmışdı.

Hamı təzyiqi get-gedə artıran Xorvatiya millisinin qol vuracağını gözlədiyi bir vaxtda ruslar əks hücumlardan birində hesabı açdılar. Denis Çerışev mükəmməl bir qolla meydan sahiblərini sevindirdi. Lakin 39-cu dəqiqədə xorvatiyalı Andrey Kramariç başla topu qapıya vurub hesabı bərabərləşdirdi.

Fasilədən sonra xorvatlar hücuma, ruslar isə müdafiəyə daha çox üstünlük verirdilər. Bütün cəhdlərə baxmayaraq, real qol imkanlarından istifadə olunmadı və qarşılaşmanın əsas vaxtı heç-heçə başa çatdı.

Qalibi müəyyənləşdirmək üçün əlavə 30 dəqiqə oynanıldı. İspaniya komandası ilə qarşılaşmada olduğu kimi Rusiya millisinin oyunu penalti zərbələrinə aparmaq niyyəti bu dəfə də baş tutdu. 101-ci dəqiqədə xorvatiyalı Domaqoy Vida komandasını hesabda irəli çıxartdı. Əlavə vaxtın başa çatmasına 5 dəqiqə qalmış Mario Fernandes əsas vaxtda yekun hesabı müəyyənləşdirdi-2:2.

Qalibi müəyyənləşdirmək üçün 11 metrlik cərimə zərbələri yerinə yetirildi. Penaltiləri daha dəqiq yerinə yetirən xorvatlar 4:3 hesabı ilə qalib gələrək yarımfinala yüksəldilər.

Beləliklə, iyulun 11-də keçiriləcək yarımfinal matçında İngiltərə və Xorvatiya yığmaları üz-üzə gələcəklər.



## Titedən vida şərhi

"Bu, böyük oyun idi. Bizim də imkanlarımız az deyildi. Ancaq Belçika qol fürsətlərindən daha səmərəli istifadə etdi". Bu sözləri Braziliya millisinin baş məşqçisi Tite DÇ-2018-in 1/4 finalında Belçikaya uduzduqları oyundan (1:2) sonra deyib.

O, görüşün çox maraqlı keçdiyini bildirib: "Məğlub olmağımıza baxmayaraq, oyun heyrətamiz idi. Əgər siz yaxşı bir tamaşa izlədinizsə, bu, doğrudan da heyrətamizdir. İkinci hissədə, demək olar ki, bütövlükdə oyuna nəzarət etdik".

Tite Braziliya millisindəki gələcək karyerası ilə bağlı danışmaq istəməyib. O, belə bir vaxtda bu məsələyə toxunmaq istəmədiyini bildirib.



## "Məğlubiyyət ağrılıdır, əzab verir"

"Əvvəlki rəqiblərimizə qarşı oynadığımız kimi oynamadıq. Komanda şəklində məğlubiyyəti hiss edirik. Geri dönüş etmək üçün çox şey etdik, amma ikinci qolu buraxdıq. Etdiyimiz əvəzetmələrin köməyi olmadı". Bu sözləri Uruqvay millisinin baş məşqçisi Oskar Tabares DÇ-2018-in 1/4 finalında Fransaya 0:2 hesabı ilə uduzaraq mübarizəni dayandırdıqları oyundan sonra keçirilən mətbuat konfransında deyib.

"Oyunda gedişatı dəyişmək üçün bütün mümkün səyləri göstərdik, amma rəqib daha yaxşı oynadı. Bunu etiraf edirəm", - deyə o bildirib.

O.Tabares Amerika kubokuna hazırlaşacaqlarını vurğulayıb: "Daha da irəliləməliyik. Gələcəyimiz barədə düşünəcəyik. Futbol elitasının bir çox ölkəsi Rusiyanı bizdən əvvəl tərk etdi. Məğlubiyyət ağrılıdır və əzab verir. Amma onu aradan qaldırmalıyıq".



## Kapitandan fədakarlıq

Futbol üzrə İsveç yığmasının kapitanı Andreas Qrankvist göstərdiyi fədakarlıqla diqqət mərkəzinə düşüb. 33 yaşlı futbolçu Rusiyada təşkil olunan dünya çempionatının 1/4 final mərhələsi çərçivəsində İngiltərə ilə oyun öncəsi övladının dünyaya gəldiyinə dair xəbər alsa da, komandasının düşərgəsini tərk etməyib. Andreas həyat yoldaşı Sofiya Qrankvistin uşaq dünyaya gətirəcəyini bilə-bilə millinin düşərgəsində qalmağa qərar verib. Şad xəbəri Sofiya sosial şəbəkə hesabından yayıb. O, Mika adlı uşaqlarının olduğunu açıqlayıb. Bir neçə saat sonra futbolçu özü də övladlarının sağlam şəkildə dünyaya gəlməsinin sevincini hər kəslə paylaşıb.



## "Qələbəyə layiq idik"

"Biz daha yaxşı oynadıq. Uruqvay ən yaxşı müdafiə olunan komandalardan biridir. Buna baxmayaraq, iki qol vurduq. Qələbəyə layiq idik. Gənc heyətə sahibik. Bir çox futbolçuda sarı vərəqə var idi. Amma xoşbəxtlikdən oyunçularımın heç biri cəzalı duruma düşmədi". Bu sözləri Fransa millisinin baş məşqçisi Didye Deşam DÇ-2018-in 1/4 finalında Uruqvaya 2:0 hesabı ilə qalib gəldikləri oyundan sonra keçirilən mətbuat konfransında deyib.

O, komandasının hücumçusu Olivye Jirunun hələ də qol vurmadığına belə münasibət bildirib: "Düzdür, o, hələ də fərqlənə bilməyib. Ancaq Jiru həmişə komandada böyük rol oynayır. Komanda yoldaşlarına kömək edən oyunçular bizə lazımdır. Bəlkə də onun parlaq oyun tərzi yoxdur, amma komandaya çox faydalıdır".




## MARADONA üzr istədi

Argentina futbolunun canlı əfsanəsi Dieqo Maradona DÇ-2018-in hakimləri haqqında işlətdiyi ifadələrə görə üzrxahlıq edib. Veteran hücumçu şəxsi instaqram vasitəsilə FİFA-dan üzr istədiyini yazıb:

"Bu günlərdə hakimlərə bir-iki söz atmışam. Etiraf edirəm ki, onlardan bəziləri düzgün qəbul olunmayıb. FİFA və onun prezidentindən üzr istəyirəm. Bəzən mən hakimlərin qərarı ilə razılaşmaya bilərəm, ancaq onların işinə hörmət edirəm".

Qeyd edək ki, Maradona 1/8 finalda İngiltərə ilə oyunda görüşün baş hakimi Mark Qeyqerin Kolumbiya millisinin qapısına təyin etdiyi penalti qərarını sərt tənqid edərək onu oğru adlandırıb. FİFA isə onun bu hərəkətini pisləyib.

Bura Vətəndir

# MƏNİM DOĞMA KƏNDİM

**Məşhur rus tənqidçisi Belinskinin bir sözü yadıma düşür: "Yaranan əsərlər də doğulan körpələr kimidir. Körpələr ana bətnində yaranır, sonra dünyaya göz açır, ayaq tutub yeriyir, böyüyür. Əsərlər isə hər bir müəllifin təxəyyülündə, təfəkküründə, ürəyinin dərinliyində dönə-dönə təkrar olunur, sonra isə sətirlənir, vərəqlənir, cildlənir".**

Həyatda nadir doğulan altıaylıqları nəzərə almasaq, hamı ana bətnində doqquz ay qalır. Bu yazının qəlbimdə, beynimdə nə vaxt yarandığını, kök saldığını xatırlaya bilmirəm. Ancaq onu bilirəm ki, uşaq idim. Qayğılardan uzaq, dəcəl bir uşaq... Bir də kəndimiz... Və mənə onda elə gəlirdi ki, kəndimizdən başqa dünyada heç bir yer - kənd yoxdur. Hər tərəfdən dairəvi şəkildə yerlə birləşən göyün qübbəsi (tağı) elə bil onun üstünü qapayırdı. Gecələr isə kəndimizin göy qübbəsini dəlmə-deşik edən ulduzlar onu nənəmin aş süzdüyü qorapalana (aşsüzənə) oxşadırdı. Bir də onda mənə elə gəlirdi ki, göydə yanan günəş, ay, ulduz - hər şey ancaq bizim kəndindir və bizim üçün yaranıbdır.

Haradansa bir gün ağlıma gəldi ki, kəndimizin qurtaracağına gedib yerlə göyün birləşdiyi yeri görməliyəm. Hətta qərara da aldım ki, ora diqqətlə baxacağam, dabanımı qaldırıb göyün ətəyinə əlimi də vuracağam. Qaçdım ora tez çatım deyə. Ancaq nədənsə o yer də məndən qaçırdı. O qədər qaçdım ki, lap əldən düşdüm. Bir də kənd evlərindən nə qədər aralandığımı bilmək üçün dönüb geri baxdım. Lakin heç bir şey görünmürdü. Hətta kəndimizin hər tərəfindən açıq-aydın görünən, sanki səmanı çiyinlərində saxlayan, Sabir müəllimin babası Fətulla kişinin haçansa əkdiyi nəhəng qovaq da gözə dəymirdi. O qovaq ki, Şorsulu adlı kəndimizi məşhur etmişdi. Axıb gedən çayın sahilindəki bu qovağın yuxarı gövdəsində taxtadan restoran da tikmişdilər. Bakı-Astara şose yolu ilə gedən maşınlar xüsusilə yay aylarında burada dayanar, adamlar sudan, çaydan içib, çörək yeyib sonra yollarına davam edərdilər. Kənd uşaqları kiçik taxta yeşiklərdə iris (südlü karamel), üzüm, qaynadılmış qarğıdalı satıb özlərinə dərs ləvazimatı, əyin-baş üçün pul qazanardılar. Orta məktəbin 7-ci sinfində oxuyarkən ilk qələm təcrübəsi kimi "Qovaq" adlı şeirimi də bu təəssüratdan yazmışdım. İki misrası indi də yadımdadır:

*Qovaq doğma kəndimizdə babalardan*
*yadigardır,*
*Görkəmilə gözümüzdə keçmişləri*
*xatırladır.*

Fikrimdə isə başqa bir dünya, başqa bir kənd vardı. Torpağı, səması, günəşi eynilə bizimki kimi. Geri qayıtdım və anladım ki, dünya ancaq bizim kənddən ibarət deyilmiş. Torpaq, səma, günəş, ay, ulduzlar yalnız bizim deyil, onlar bütün kainatındır. Onlar bütün dünyaya göz açanlarındır. Amma bunlar hamıya eyni gözlə baxır, heç kəs üçün səxavətlərini əsirgəmirlər. Hərdən ağlıma belə bir fikir gəlir ki, yaxşı ki, günəşi və havanı insanlar özəlləşdirə bilməyiblər.

Nənəm kəndimiz, onun keçmiş insanları haqqında maraqlı söhbətlər edərdi. Başımı dizinin üstünə qoyub dinlədikcə haçan yuxuya getdiyimdən xəbərim olmazdı. Müharibə vaxtı Əbilqasımın, Yalamadodaq Hüseynin NKVD-yə donos verdiklərindən, camaatın başına olmazın oyunlar açdıqlarından, kənardan da Pişan adlı quldurun dəstəsinin kəndi çalıb-çapmasından danışardı. Sonralar bu haqda "Nənəmin xatirələri" adlı bir şeir nümunəsi də yarandı:

*...Əlində tatarı, belində nağan*
*Pişan kəndə girdi, haray qopardı...*
*El-oba batardı tapdağı altda,*
*Atını belədən-belə çapardı.*

*Gəlib talardı o, nəyimiz vardı,*
*Həddimiz olmazdı bir söz deməyə.*
*Arpanı-buğdanı ata çatardı,*
*Biz möhtac qalardıq tərə yeməyə...*

Bizim Mirzəmi (Mirzə əmi) dediyimiz oğlu Əbil müəllimin müharibəyə gedib hələ də qayıtmaması, daha doğrusu, dava qurtarandan sonra bütün əsirlikdə olanlar kimi, Stalinin əmri ilə onun da dustaq edilməsi nənəmi üzürdü. Gecə-gündüz ağlamaqdan gözləri tutulmuşdu.

Atam müharibədən sonra ata ocağının qonşuluğunda özü üçün ev tikmişdi. Mən və qardaşlarım nənəmin Sarıqız adlı inəyini həyətə gətirmək üçün axşamçağılar naxır qabağına gedirdik. Sarı rəngli bu inəyin qəribə yerişi vardı. Yeridikcə dırnaqları yavaşca şaqqıldayırdı. Bu, Sarıqızı nəzərimizdə daha cazibədar edirdi. Gözü görməsə də, inəyi nənəm özü sağar, qatıq çalardı. Sağınımız olmadığı üçün atama, demək olar ki, hər gün qatıq verərdi. Bir gün qardaşlarımdan hansısa gedib nənəmə deyir ki, atam qatıq istəyir. Nənəm bir az əvvəl digər qardaşımla qatığı göndərdiyini söyləyir. Bu əhvalatdan sonra nənəm atama qatıq üçün uşaq göndərəndə dəsmalını ona verməsini tapşırır. Həmin gündən başlayaraq nənəm atamın dəsmalını alıb iylədikdən sonra qatığı bizə verərdi.

Kəndimizdən ayaq tutub neçə-neçə kəndlər, şəhərlər gəzib-dolaşdım. Hərəsinin də öz insanları, öz təbiəti, öz gözəlliyi. Şəhərlər daha cazibədar, daha füsunkardır. Onların göydələn deyilən çoxmərtəbəli binalarına baxanda adamın papağı düşür. Yaraşıqlı küçələri ilə şütüyən cürbəcür maşınlar, insan axını başqa bir aləmdir. Şəhərlərin gözəl bağları, parkları, xiyabanları, restoranları, daha nə bilim nələri, nələri var.

Elektrik dirəklərinin körpə uşaq kimi yıxıla-dura ayaq tutub kəndimizə gəlməsi bu gün də olduğu kimi yadımdadır. Bu gəlişlə adamların dünyagörüşü, həyat tərzi dəyişdi. Hər evdə elektrik lampası şöləlçndi. Kəndimizdə ilk televizoru sürücü işləyən qonşumuz Fəxrəddin alıb gətirdi. Həmin gün, demək olar ki, hamı onun evinə yığışmışdı. Anten dirəyi qaldırıldı. Handan-hana ağ-qara ekranda şəkillər göründü. Hamı uşaq kimi sevinirdi. İşığın gəlişi ilə kəndimizdə hər şey dəyişdi. Bizim kənd digərlərinə nisbətən inkişaf etmiş hesab edilirdi. Savadlı adamları da müqayisədə çox idi. Bu, əsasən, kəndimizin Bakı-Astara magistral şose yolunun lap yaxınlığında yerləşməsi ilə bağlı idi. Ümumiyyətlə, yol kənarındakı yaşayış məntəqələri tarixən inkişaf etmiş olublar. Bu, mədəniyyətdə də belə idi. Kəndimizdəki M.F.Axundov adına kolxozun sədri Aslan Qəhrəmanov ətraf kəndlərin təsərrüfat rəhbərləri ilə müqayisədə mütərəqqi fikirli adam sayılırdı. Kolxoz idarə heyəti ilə birlikdə gözəl bir klub tikdirmişdi. Hörmətli adam olduğundan mədəniyyət evinin açılışına rayondan, Bakıdan çoxlu sayda qonaq gəlmişdi. Kənd adamları Zeynəb Xanlarovanı ilk dəfə burada görüb, mahnılarına canlı-canlı qulaq asıblar. A.Qəhrəmanov kluba nərd, domino, dama, bilyard da aldırıb qoydurmuşdu. Kiçik həcmdə olan bilyardın şarları dəmirdən idi.

Məktəbdən gələndən sonra mən və yoldaşlarım axşamüstü kluba gedib stolüstü oyunlar oynayardıq. Mənim həvəsim daha çox bilyarda idi. Odur ki yaşlı adamlardan "svoy", "çujoy" sözlərini burada eşitdim. Böyüklərdən sonra növbə bizə çatardı. İndi bir yerə gedəndə bilyard oynayarkən çoxunu uduram. 1988-ci ilin yazı idi. O vaxt Salyan Rayon Partiya Komitəsində Təşkilat partiya işi şöbəsinin müdiri işləyirdim. Birinci katibin tapşırığına əsasən hazırlanan məsələ üzərində MK-nın məsul işçisi ilə (bir neçə il sonra Cəlilabad Partiya Komitəsinə birinci katib göndərilən Eybalı Ağayevlə) bir yerdə işləyirdik. Bir gün nahar yeməyindən sonra qonaq evinin birinci mərtəbəsində qoyulan bilyardı görüb oynamağı təklif etdi. Onu udduğumu görüb "Deyəsən, sizin işiniz-gücünüz bilyard oynamaqdır" dedi. Etikanı gözləyib heç bir söz demədim. Amma özüm yaxşı bilirdim ki, bu, yeniyetməlik dövründə kolxoz klubunda öyrəndiyimin nəticəsi idi. İndinin özündə mən bu fikirdəyəm ki, respublikada idmana göstərilən belə bir diqqət və qayğı ən yüksək səviyyədə bəhrəsini verəcəkdir.

...Harada olmuşamsa, sən yadıma düşmüsən, sənsiz heç yerdə uzun müddət qərar tuta bilməmişəm, doğma kəndim. Yəqin ki, anaları bir yerə gedəndə azyaşlı uşaqların onların dalınca necə ağladıqlarını hamı görüb. Bax mən də sənin üçün elə darıxmışam, elə doluxmuşam. Bu hissləri Rusiyada hərbi xidmətdə olduğum zaman çox keçirmişəm. Özü də axşamçağları. Günəş qürub edəndə. Ömrümdə fərəhli, qəmli anlarım çox olub. O sevincdən, istəmişəm ki, sənə də pay düşsün. Kədərli vaxtlarımda sənin dost qədri bilən oğullarını görmək istəmişəm. Elə bilmişəm ki, onlar yanımda olsalar, dərdim-qəmim bir az azalar. O oğullar ki, vəzifədən vurularaq çıxarılanda belə heç vaxt qürurunu sındırmayıb, nadana, cahilə baş əyməyib, şəxsiyyətini, ləyaqətini uca tutublar. O oğullar ki, zəhmətdən cadar-cadar olmuş əlləri sənin əllərini ovcu içinə alıb elə sıxar ki, bu əllərin gücünə heyran qalarsan. O əllər ki, pambıq əkər, taxıl biçər, sükan tutar.

Təkcə oğulları deyil, qızları, gəlinləri də zəhmətkeşdir bu kəndin. Müharibə zamanı kişilər davaya gedəndə onlar arxa cəbhədə gecə-gündüz çalışmışlar, kişiləri əvəz etmişlər. Belə qadınlardan biri də Bibinisə Eyvazova idi. Kişi hünərli bu qadın ömrünü-gününü kolxoza həsr etmiş, suçu işləmişdi. Macal tapıb ailə həyatı da qurmamışdı. İstidən, soyuqdan sifəti tunca dönmüşdü. Sanki canlı heykəl idi. Ulu öndər Heydər Əliyev onunla həmin illər tarlada görüşüb, işi-gücü, həyatı ilə maraqlanmışdı. Çox çəkməmişdi, ona Sosialist Əməyi Qəhrəmanı adı verildi. Bu məni də hədsiz dərəcədə sevindirmişdi:

*Şorsulu sevincdən don geyinibdir,*
*Bu dona bu ulduz gözəl yaraşır.*
*Təbrikə gəlmişdir Akkuşa çayı,*
*Sahilə sığmayıb, hey aşıb-daşır.*

Harada bir toy görmüşəmsə, Şorsulunun toyları yadıma düşüb. Nəcəfqulunun hər toy günündən bir gün əvvəl kəndin başından tutmuş ayağına kimi bütün evlərə "sabah filankəsin oğlu filankəsin toyudur" deyə car çəkməsi qulaqlarımda səslənib. Qızların, gəlinlərin sığallanıb, xonçalanıb durna qatarı kimi toy yerinə yollanması, aşığın saz havası, toyxana başında sevgililərin bir-birini oğrun-oğrun gözaltı süzməsi gözlərim önündən gəlib keçib.

Son mənzilə yola salınan bir tabut görmüşəmsə, kənddə birisi rəhmətə gedəndə hamının bir nəfər kimi hüzr sahibinin dərdinə şərik olmaq üçün yas yerinə yollanmasını xatırlamışam.

Yerlər görmüşəm - zümrüd meşəli, şəlalə saçlı, dağlı-dərəli. Sənin Akkuşa çayı boyunca düzülən salxım söyüdlərini, üzümlü, əncirli bağlarını xatırlamışam. Düzlərdən keçmişəm - ucsuz-bucaqsız zəmiləri göz işlədikcə dəniz kimi dalğalanan düzlərdən. Sənin çöllərini, düzlərini görmək istəmişəm. O çöllərini ki, bağrı duz əlindən doğram-doğram olub. Deyirəm, bölünmüş bu torpağı ağ və qara boyasalar, dünyanın şahmat yarışını, bəlkə də, bizim çöllərdə keçirmək olar. Bu çölləri - Babaşəkəni, Qobu ayağını, Qarayanığı, Cavad və Hacı Hüseyn çalalarını və digər yerlərini qarış-qarış gəzmişəm. Payız-qış aylarında Mahmudçala gölündə ördəyini, qazını ovlamışam. Yazda yemliyini, quşəppəyini, sonra böyürtkənini yığmışam. Bu çöllərdə yay aylarında, məktəbdən tətilə buraxılarkən kolxozda işləmişəm, xırman döymüşəm, mala çəkmişəm, pambıq yığmışam. On bir uşaq doğub böyütmüş Qəhrəman ana haqqında "Sura xala" şeirimdə demişəm:

*Kündələri xırda-xırda yayardın,*
*Uşaqları süfrə üstə sayardın.*
*Az olanda südə su da qatardın:*
*"Balalarım heç küsməsin", - deyərdin.*
*Ən axırda öz payını yeyərdin.*

*Valehinlə bir xırmanı döymüşük,*
*Altdan çıxan arpasını bölmüşük.*
*Az-çox üstdə bir-birini söymüşük.*
*Heç bilmirəm hara getdi o günlər,*
*Keçən günə gün çatmazmış doğrudan.*

Valeh dediyim bu şəxs indiki Bakı Dövlət Universitetinin Mexanika-riyaziyyat fakültəsini bitirib, təhsilini davam etdirmək üçün SSRİ zamanında Moskvaya getdi, elmlər doktoru, professor, Rusiyanın görkəmli alimlərindən biri oldu.

Yuxarıda adlarını çəkdiyim çöllərimizi, düzlərimizi suvaran Səpmə arxı illər keçdikcə sökülüb-dağıldı. Adamlar onun yerində yurd salıb ev tikdilər. Arxın belə bir vəziyyətə düşməsi yeniyetməlik dövründə mənə pis təsir edirdi. Düzdür, onun əvəzinə digər yerdən daha müasir kanal çəkmişdilər. Nədənsə mən o vaxtlar bunu vəfasızlıq kimi qəbul edirdim. Hətta o zamanlar belə bir şeir də yazmışdım:

*Keçmişimdən bugünümə*
*heykəlsənmi,*
*Keçmişimə baxmaq üçün*
*gözlüksənmi,*
*Səpmə arxı?*
*Pambığımız, taxılımız*
*yanan zaman*
*Ovucunla suvarmısan*
*düzləri sən.*
*Arvad-uşaq tənəsindən*
*Qoymamısan qızarmağa*
*üzləri sən,*
*Səpmə arxı.*
*İllər keçib başın üstdən*
*yellər kimi,*
*Yuyub səni aparıblar*
*sellər kimi,*
*Səpmə arxı.*
*Bala Kürdən Qarayanıq*
*düzünəcən*
*Adda-budda izin qalıb.*
*Odun sönüb, külün qalıb,*
*Səpmə arxı.*
*Gördüm səni, keçmişlərin*
*düşdü yada,*
*Vaxt olub ki, kəndimizə*
*Çörək olub, su olmusan.*
*İndi sən də babam kimi,*
*atam kimi*
*Artıq yoxsan,*
*Səpmə arxı.*

Çaylar görmüşəm - sənin Ana Kürdən ayrılıb gələn, Salyanın və Neftçalanın cənub hissəsində yerləşən kəndlərinin bağbağatlarını, əkinlərini suvaran Akkuşa çayın yadıma düşüb. Bu çay kəndimizi elə ikiyə bölüb ki, yuxarıdan baxan olsa, onu açılmış kitaba bənzədər. Bu kitabın səhifələri isə biz muğanlıların Kürün boz-bulanıq suyunu daş süzgəcdə damcı-damcı süzüb içdiyimiz kimi, babaların, nənələrin yaddaşından süzülə-süzülə bugünümüzə gəlib çıxan acılı-şirinli xatirələridir.

"Dünyada ideal bir quruluş, cəmiyyət yoxdur", "nöqsansız yalnız uca Tanrıdır" fikirləri cəmiyyət yaranandan, insan övladının ağlı kəsdiyi vaxtdan öz təsdiqini tapmışdır. Bugünün özündə inkişaf etmiş, demokratiyanın beşiyi hesab olunan ökələrdə haqsızlıqların, xüsusən ikili standartların, etnik və dini dözümsüzlüyün baş alıb getdiyini yaxşı görürük. Və yaddaşım məni geriyə - ömrümün müəyyən hissəsinin keçdiyi sovet dövrünə aparır.

O, acısı-şirini ilə tariximizin, ömrümüzün bir hissəsidir. Sovet hakimiyyəti süquta uğrayandan sonra bu quruluşun adına olmazın nöqsanlar, hətta təhqirlər yağdırdılar. Yaradılanlar, tikilib-qurulanlar yaddan çıxdı. Düzdür, sosializm cəmiyyətinin, sovet sisteminin səhvləri, çatışmazlıqları olub, lakin yaxşı cəhətləri, müsbət xüsusiyyətləri də az deyildi. Gəlin etiraf edək ki, onda adamlar indi olduğu qədər pula, mala, sərvətə həris deyildilər, mənəviyyat, insanlıq bu qədər aşınmaya məruz qalmamışdı, adamların gözükönlü tox idi. Elə buna görə çoxları indi o günləri xiffət hissi ilə anır.

Kolxozçular həmkarlar ittifaqının xətti ilə payız-qış aylarında sosialist ölkələri sayılan Polşa, Çexoslovakiya, Almaniya Demokratik Respublikası, Bolqarıstana, eləcə də keçmiş SSRİ-nin müxtəlif yerlərinə, şəhərlərinə səyahətə, sanatoriya və istirahətə gedərdilər. Kəndimizdəki M.F.Axundov adına kolxozda arabaçı işləyən Xanlar kişinin mənimlə həmyaşıd oğlu Nurməmmədin burnundakı şiş bütün üz nahiyəsini bürümüş, nəfəsini tutmuş, gözlərinin üstünü örtmüşdü. Onu kolxozun maliyyə dəstəyi ilə bir neçə il dalbadal Moskvadakı onkoloji xəstəxanaların birinə aparıb müalicə etdirdilər. Nurməmməd Feyzullayev sağaldı və bu gün də sağlam yaşayır.

Amma hər şeyi düz demək lazımdır. O vaxtlar zəhmət adamı halal qazancı ilə istədiyi kimi ev tikdirə bilmirdi. Necə deyərlər, halal adamlar dələduzların güdazına gedirdi. Kəndimizdə Ərəstun Məlikov adlı bir həkim vardı. Arvadı Çimnaz xanım da həkim idi. Tibb Universitetində təhsil alarkən bir-birini sevib-seçmişdilər. Ali məktəbi bitirəndən sonra ailə qurmuşdular və hər ikisi Şorsuluya təyinat almışdı. Onlar özlərinə şərait yaratmaq üçün torpaq götürüb ev tikməyə başladılar. Gəl ki, maşın hər dəfə həyətlərinə daş gətirəndə SƏDM əməkdaşları qonurdular üstünə. Yazıqlar axırda bezib saldıqları yurdu yarımçıq sataraq köçüb getdilər. Raykomun bürosunda 11 mişar daşından hündür ev tikən adamların partiya cəzası aldığını və işdən çıxarıldığını az görməmişik. Guya hündür, damı paslanmayan dəmirdən olan evlər cəmiyyətdə təbəqələşmə, ayrı-seçkilik yaradır.

İndi isə belə qadağalar yoxdur. Bu gün kəndimizdə yeni, müasir yaşayış evləri tikilir, bir neçə şadlıq evi, apteklər, içində nə desən tapılan kommersiya dükanları fəaliyyət göstərir. Kəndimizdən neçə-neçə adamın Bakıda da evi var. Burada yenə yadıma bir hadisə düşür. Orta məktəbin səkkizinci sinfində oxuyurdum. Novruz bayramına 3-4 gün qalmışdı. Kənd mağazası da evimizin təqribən 20-30 metrliyində yerləşirdi. Xəbər yayıldı ki, bayram münasibətilə mağazaya İran xurması gəlib. 15 kiloqram xurma çox az adama çatdı və mən ilk dəfə onda xurma gördüm. İndi isə kənd dükanlarında istər ərzaq, istər sənaye malı olsun, - hər şey tapmaq mümkündür. Kənd adamlarının çoxunun qapısında müxtəlif markalı minik maşınlarının olmasını hələ demirəm. Bu gün kəndli pay torpağında istədiyini əkir, məhsullarını istədiyi bazarda satır. Təxminən 10 il bundan əvvəl torpağını satmaq və ya icarəyə vermək istəyən mülkiyyətçilər artıq bu fikirlərindən vaz keçmişlər. Pay torpaqlarını özləri əkib-becərir və yaxşı da qazanc əldə edirlər. Bakıya, Sumqayıta üz tutan adamlar indi öz kəndinə qayıdır. Bax beləcə müstəqilliyimizin ilk illərində yaranan çətinliklər hər yerdə olduğu kimi, Şorsulu kəndində də aradan qaldırılır. İnsanların həyat şəraiti durmadan yaxşılaşır.

Bir haşiyə çıxacağam. İlk dəfə "İj-58" markalı motosiklet və "Jiquli" minik maşınının çıxmasını olduğu kimi xatırlayıram. Kənd adamları "palturka"dan düşüb "Jiquli"yə oturmuşdular. Başqa bir məsələ: bu gün avtomobil yollarımız dünya standartları səviyyəsində yenidən qurulur. Bu yollar "sovet yolları" ilə müqayisə olunası deyil. Bunları deməkdə məqsədim odur ki, ölkəmiz, şəhərlərimiz, qəsəbə və kəndlərimiz bu gün daha sürətlə inkişaf edir, daha abad olur. Ən başlıcası isə, biz müstəqil ölkənin vətəndaşlarıyıq. Fəxr etməliyik ki, bir sıra çətinliklərə baxmayaraq, müstəqilliyimizin bərpasının şahidi olmuşuq. Azərbaycanın hər bir guşəsi kimi, mənim kəndimin də xoş, firavan günləri, çağları başlayıb.

Bəlkə də buna görə ömrümün çoxunu yaşadığım bu çağımda doğma kənd məni özünə daha çox çəkir. Bayramlarda, əlamətdar günlərdə kənd qəbiristanlığına gedib əzizlərimə baş çəkməyi özümə mənəvi borc bilirəm. Hər dəfə gedəndə də ata-babamın, qohum-qardaşımın qəbirləri ətrafına göz gəzdirib özüm üçün yer seçirəm:

*Harda olmuşamsa, səni anmışam,*
*Özümə ən yaxın sirdaş sanmışam.*
*Əgər yanmışamsa, sənə yanmışam.*
*Səndən başlamışdır cığırım, yolum,*
*Mənim doğma kəndim, mənim Şorsulum!*

*Sən yuva, mən isə köçəri bir quş,*
*Yuvadan başlayır ilk dəfə uçuş.*
*De, qoca dünyanı kim tutub durmuş?!*
*Sən mənim qanadım, sən mənim qolum,*
*Mənim doğma kəndim, mənim Şorsulum!*

*Sənsən ana yurdum, elim, obam da.*
*Qoynunda uyuyur atam, babam da.*
*Məni də qucarsan bir gün - son anda.*
*Dünənim, bugünüm, sabahım, ulum,*
*Mənim doğma kəndim, doğma Şorsulum!*

**Seyran CAVADOV,**
**"Azərbaycan"**

# Atəşkəs rejimi 83 dəfə pozulub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 83 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikasının Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə, İcevan rayonunun Berkaber, Ayqeovit kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Qaymaqlı, Qızılhacılı, Bala Cəfərli kəndlərində, Berd rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Qaralar kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altındakı Göyarx, Çiləbürt, Ağdam rayonunun Şıxlar, Cəvahirli, Kəngərli, Seyidli, Yusifcanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qərvənd, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Qorqan, Kürdlər, Horadiz, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqelərinə atəş açılıb.

# Ermənistanın ATƏT PA-da nümayəndə heyətinin rəhbəri təlaşa düşüb

ATƏT Parlament Assambleyası Daimi Komitəsinin təşkilatın illik 27-ci sessiyası çərçivəsində Berlində keçirilən iclasında Ermənistan parlamentinin bu qurumda nümayəndə heyətinin rəhbəri Ermine Naqdalyan Azərbaycanın öz müdafiə qabiliyyətini daha da gücləndirməsi və yeni silah növləri alması ilə bağlı "timsah gözyaşı" töküb. Amma erməni deputat Bakının bu maliyyə vəsaitlərini sülh proqramlarına deyil, hərbi məqsədlər üçün ayırmağa məcbur olmasının əsas səbəbinin məhz onun ölkəsi tərəfindən qonşu Azərbaycanın 20 faiz ərazisinin işğalının davam etməsi və Ermənistanın istər əvvəlki, istərsə də hazırkı hökumətinin danışıqlar prosesində qeyri-konstruktiv mövqeyi olmasını açıqlamayıb.

Erməni deputat bu əsas səbəbi açıqlasaydı, yəqin ki, özünün verdiyi suallara da cavab tapa bilməyəcəkdi.

***AZƏRTAC***

## Beynəlxalq aləm
### HADİSƏLƏR, FAKTLAR

# Dünyada qeyri-adi isti hökm sürür



Dünyanın bir çox regionunda qeyri-adi isti hökm sürür. Kanada, ABŞ, Yaxın Şərq ölkələri, Avropanın bir sıra ölkəsində termometrlərin sütunları rekord yüksəkliyə qalxmışdır. Bu barədə "RİA Novosti" agentliyi xəbər verir.

Yüksək temperatur kənd təsərrüfatına ziyan vurur, yanğınlara səbəb olur və tibb işçilərində ciddi narahatlıq doğurur.

Kanadada istidən artıq 54 nəfər dünyasını dəyişmişdir. Yaponiyada günvurmadan 3 nəfər ölmüş, 3500-dən çox adam xəstəxanalara yerləşdirilmişdir.

Sibirin bəzi regionlarında termometrin sütunu 33 dərəcəyə qalxmışdır. Bu, iqlim normasından 10 dərəcə çoxdur.

Böyük Britaniyanın da bir çox şəhərində rekord temperatur qeydə alınmışdır.

Avstraliyada 50 maşın ərimiş asfaltda ilişib qalmışdır. İsraildə də hava temperaturu ilin bu mövsümü üçün standart olan göstəriciləri üstələyir.

# Yaponiyada leysan qurbanlarının sayı 35 nəfərə çatdı



Yaponiyada leysan yağışları və torpaq sürüşməsi nəticəsində həlak olanların sayı 35 nəfərə çatmış, 47 nəfər itkin düşmüşdür. Bu barədə yerli NHK telekanalı xəbər verir.

TASS agentliyi xəbər verir ki, ölkənin qərbində bir çox rayonlarda yağış kəsildiyinə görə axtarış əməliyyatı xeyli asanlaşmışdır. Buna baxmayaraq, hakimiyyət orqanları torpaq sürüşmələri təhlükəsi barədə xəbərdarlıq edirlər.

Güclü yağışlara səbəb "Prapirun" qasırğasıdır. Bu, ilin əvvəlindən Sakit okeanda sayca yeddinci tayfundur.

# NATO Putin-Tramp görüşündən narahatdır



NATO-da Rusiya və ABŞ liderləri - Vladimir Putinlə Donald Trampın iyulun 16-da Finlandiyanın paytaxtı Helsinkidə keçiriləcək görüşündən narahatdırlar. Bu barədə AFR-in Transatlantik əməkdaşlıq üzrə əlaqələndiricisi Peter Bayerə istinadən "Röyter" agentliyi xəbər verir.

Bayerin dediyinə görə, danışıqlar NATO-nun bəzi üzvlərində narahatlıq doğurur.

"Alyansda Trampla Putinin əldə edə biləcəyi sazişlərlə bağlı böyük narahatlıq var. Alyans bu görüşün hazırlığına cəlb edilməmiş və NATO-da iki liderin görüşü zamanı hansı razılaşmalar əldə oluna biləcəyindən bixəbərdirlər", - deyə almaniyalı əlaqələndirici bildirmişdir.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru, professor Gülçöhrə Məmmədova ailəsi ilə birlikdə Azərbaycan Respublikası Prezidentinin işlər müdiri Oqtay Şahbazova bacısı

**SVETLANA ƏZİZOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Ceyhun Cəfərov və Kürdəmir Rayon İcra Hakimiyyəti başçısı aparatının kollektivi Azərbaycan Respublikası Prezidentinin işlər müdiri Oqtay Şahbazova bacısı

**SVETLANA ƏZİZOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Cəlilabaddan Namiq Zeynalov Elxan Əmirəliyevə bacısı

**TƏNZİLƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyinin rəhbərliyi və kollektivi Oqtay və Pərviz Şahbazovlara əzizləri

**SVETLANA ƏZİZOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Azərbaycan" nəşriyyatının kollektivi Oqtay Şahbazova bacısı

**SVETLANA ƏZİZOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

İsmayıllı Rayon Məhkəməsinin sədri və məhkəmənin kollektivi Bakı Apelyasiya Məhkəməsinin sədri İman Nağıyevə atası

**MƏMMƏD NAĞIYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR

Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə

e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-63-82,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60,
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8382
Sifariş 1956